

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 avqust 2024-cü il, çərşənbə axşamı № 139 (6725) Qiyməti 60 qəpik




# Şəhər əhəmiyyətli yeni avtomobil yolu...

## İlham Əliyev “Cavanşir” körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında iştirak edib

Bax səh. 2

## 3 ölkənin diplomatları Bakıda...

Bax səh. 3



## İlk dayanacaq qəhrəman Nüvədi kəndi olacaq

Bax səh. 5

## Fransa Azərbaycandan üzr istəməlidir!

Bax səh. 4



## Paytaxt COP29-a hazırlaşır

Bax səh. 2

## Ənənə bərpa olunur

İşğaldan azad olunmuş ərazilərdə aqrar layihələrin icrasına özəl sektorun cəlb edilməsi genişlənməkdədir. Bu ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın təmin edilməsi ilə paralel şəkildə biznes fəaliyyətinə dəstək verilir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq əkinçilik təsərrüfatlarının və heyvandarlıq komplekslərinin yaradılması nəzərdə tutulub və həmin prioritet üzrə Laçın, Kəlbəcər və digər rayonların ərazilərinə mal-qaranın və arı ailələrinin yay köçürülməsi təmin edilməkdədir.

Fermerlər Elektron Kənd Təsərrüfatı...

Bax səh. 4

## “Standard and Poor’s”un növbəti xəsisliyi...

“Standard and Poor’s” (“S&P”) beynəlxalq kredit reytinq agentliyi Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərini açıqlayıb. Agentliyin hesabatında ölkəmizin 2024-2025-ci illər üçün iqtisadi artım perspektivləri digər beynəlxalq institutların proqnoz göstəricilərinə nisbətən xəsisliklə tərtib edilib və digər region ölkələrinin iqtisadi artım rəqəmlərindən aşağı müəyyənləşib. Belə ki, “S&P” analitiklərinin qənaətinə görə, Azərbaycanda iqtisadi artım tədricən zəifləyəcək ki, bunun da səbəbi neft hasilatının uzunmüddətli dövrdə azalması, neft ÜDM-nin dəyəryaratma gücünün aşağı düşməsidir. Proqnozlara görə, 2024-2025-ci illərdə real ÜDM artımı hər iki il üzrə təxminən...

Bax səh. 6

## Toyvo Klaarın yeni “səlahiyyəti”...

Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar 2024-cü il avqustun 4-də mətbuata verdiyi açıqlamasında Azərbaycanın daxili işlərinə qarışan və Ermənistandan qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verən fikirlər səsləndirmişdir.

T.Klaar regionda köçkünlük problemi və qayıdış hüququndan danışarkən bu hüququ müstəsna olaraq Azərbaycandan könüllü olaraq köçüb getmiş ermənilərə şamil etmiş və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnun olduğunu inkar etmişdir. Bununla kifayətlənməyən Klaar Azərbaycanın Qarabağ regionundan köçüb getmiş ermənilərinin xüsusi hal olduğunu...

Bax səh. 3

## ABŞ-da seçki marafonu...

ABŞ-da noyabrın 5-də baş tutacaq yubiley saylı, 60-cı prezident seçkiləri öncəsi namizədlər arasında planlaşdırılan debatla bağlı əməlli-başlı problem yaşanır. Məsələ orasındadır ki, hazırkı prezident Co Baydenin qarşıdan gələn seçkilərdə namizəd olmayacağını bəyan etməmişdən öncə Respublikaçılar partiyasının seçkilərdəki namizədi Donald Tramp ilə sentyabrın 10-da debatı planlaşdırılmışdı. Tramp “ABC News”un keçirəcəyi bu debata əvvəlcə razılıq versə də, Bayden seçki yarışından çəkildikdən sonra həmin debata qatılmaqdan imtina edib. Əvəzində isə sentyabrın 4-də “FOX News”da görüşmək təklifini irəli sürüb. Kamala Harris isə əvəzində Tramp gəlməsə də, sentyabrın 10-da “ABC News”un təşkil edəcəyi debata qatılacağını bildirib....

Bax səh. 7



## Müharibə olacaq, ya olmayacaq?

Bax səh. 6



## Ukraynanın “F-16” məyusluğu...

Bax səh. 7

# Şəhər əhəmiyyətli yeni avtomobil yolu...

## İlham Əliyev “Cavanşir” körpüsünün yerində inşa olunmuş yeni avtomobil yolunun açılışında iştirak edib

Avqustun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonu ərazisində “Cavanşir” körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin “Azəryolelmitədqiqatlayihə” İnstitutunun direktoru Azər Nemətli dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədilə Xətai rayonu ərazisində Üzeyir Hacıbəyli küçəsində yerləşən və uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş, uzunluğu 202 metr, eni 17,3 metr təşkil edən 12 aşırımlı “Cavanşir” körpüsü sökülərək, yerində şəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi işləri həyata keçirilib. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir.

Məlumat verildi ki, həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb, münbit torpaq qatı verilərək yeni yaşıllıq əraziləri salınıb, ən müasir işıqlandırma sistemi yaradılıb.

Xatırladaq ki, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələri istiqamətində yerləşən, uzunluğu 202, eni 17,3 metr olan “Cavanşir” yolötürücüsü dəmir yolu vasitəsilə yüklərin qısa zamanda dəniz limanına çatdırılması üçün 1962-ci ildə istismara verilmişdi. Həmin ərazidə dəmir yolu şəbəkəsinin ləğv edilməsi ilə körpünün əvvəlki əhəmiyyətini itirməsi, həmçinin yolötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə cavab vermədiyi nəzərə alınaraq təhlükəsizlik baxımından bu qurğunun sökülməsi məqsədəuyğun hesab edilmişdi.







# Paytaxt COP29-a hazırlaşır

Cari ilin noyabrında dünyanın nəzərləri yenidən Azərbaycana dikiləcək. Söhbət ölkəmizin COP29 iqlim konfransına ev sahibliyi edəcəyindən gedir. COP29 BMT-nin ən mühüm və genişmiqyaslı tədbirlərindən biridir. Konfrans çərçivəsində hazırda bütün dünya miqyasında aktuallığı kifayət qədər böyük olan iqlim çağırışları müzakirə olunacaq və mühüm qərarlar qəbul ediləcək.

Məsuliyyətli dövlət olan Azərbaycan ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirlərdə bir qayda olaraq özünün yüksək standartlarını müəyyənləşdirir. Sonradan bu standartlar digər ev sahibi ölkələri üçün bir nümunəyə çevrilir. Hazırda ölkəmizdə COP29-la da bağlı geniş əhatə dairəsinə malik hazırlıqlar həyata keçirilir. Bütün mötəbər tədbirlərə, o cümlədən də COP29-a ciddi hazırlıqlar görməklə ölkəmiz beynəlxalq ictimaiyyətə hörmətini və dünyada aktual olan çağırışlara həssas yanaşmasını ortaya qoyur. Ölkəmiz o mövqedən çıxış edir ki, məhz birgə səylərlə qlobal təhdidlərin mənfi təsirlərini azaltmaq mümkündür.

COP29-a hazırlıq çərçivəsində həmçinin şəhərimizin siması daha da abadlaşdırılır. Təkcə son vaxtlarda Prezident İlham Əliyev bir neçə ünvanda yeni istirahət məkanlarında aparılan yenidəqurma işləri ilə tanış olub və Özünün dəyərli tövsiyələrini verib.

## 400 metrlik yeni avtomobil yolunun açılışı

Son olaraq Prezident İlham Əliyev avqustun 5-də Xətai rayonu ərazisində “Cavanşir” körpüsünün yerində inşa olunmuş şəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin “Azəryolelmitədqiqatlayihə” İnstitutunun direktoru Azər Nemətli dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.



Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və tıxac probleminin nisbətən azaldılması məqsədilə Xətai rayonu ərazisində Üzeyir Hacıbəyli küçəsində yerləşən və uzun illər istismar edildiyindən yükgötürmə qabiliyyətini itirmiş, uzunluğu 202 metr, eni 17,3 metr təşkil edən 12 aşırımlı “Cavanşir” körpüsü sökülərək, yerində şəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi işləri həyata keçirilib. Dörd hərəkət zolaqlı yeni yolun uzunluğu 400 metrdir.

Tədbirdə məlumat verilib ki, həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb, münbit torpaq qatı verilərək yeni yaşıllıq əraziləri salınıb, ən müasir işıqlandırma sistemi yaradılıb.

Xatırladaq ki, Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov və Üzeyir Hacıbəyli küçələri istiqamətində yerləşən, uzunluğu 202 metr, eni 17,3 metr olan “Cavanşir” yolötürücüsü dəmir yolu vasitəsilə yüklərin qısa zamanda dəniz limanına çatdırılması üçün 1962-ci ildə istismara verilmişdi. Həmin ərazidə dəmir yolu şəbəkəsinin ləğv edilməsi ilə körpünün əvvəlki əhəmiyyətini itirməsi, həmçinin yolötürücüsünün yükgötürmə qabiliyyətinin müasir normativ yük təsirinə cavab vermədiyi nəzərə alınaraq təhlükəsizlik baxımından bu qurğunun sökülməsi məqsədəuyğun hesab edilmişdi.

## Qəhrəmanlıq tariximizi yaşadacaq Zəfər parkı

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlanıb və tikinti işlərinə başlanılıb.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar. Prezident İlham Əliyev iyulun 24-də yenidən Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur. Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

## Metronun “Gənclik” stansiyasının yaxınlığında salınan yeni park

COP29 ərəfəsində paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.

“Antena” parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.



Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev Bakıda metronun “Gənclik” stansiyasının yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub. Qeyd olunub ki, parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada bərpa işləri aparılacaq.

Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq.

Bildirilib ki, yenidən qurulan parkla yaxınlıqdakı “Dədə Qorqud” parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

Dövlətimizin başçısına, eyni zamanda, Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Binə qəsəbəsi ərazisində yeni salınmış istixanası barədə də məlumat verilib. Qeyd olunub ki, istixanada 1 milyonadək gül yetişdiriləcək. Bu da ölkəmizə gül idxalının həcmini əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək.

Yenidən qurulan park, həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində gördüyü işlərə daha bir töhfə olacaq.




## Nərimanov rayonunda “Yaşıl dünya naminə həmrəylik ili”nə töhfə

Bakının Nərimanov rayonunda əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının ərazisi 4,1 hektardır. Park XX əsrin 50-ci illərində salınıb. Ötən müddətdə bu park gəzinti və əyləncə baxımından şəhər sakinləri üçün sevimli məkana çevrilib. 1960-cı illərdə yaxınlıqda metro stansiyasının tikilməsi parka marağı daha da artırıb. Prezident İlham Əliyev iyulun 15-də əsaslı şəkildə yenidən qurulan Nərimanov parkının açılışında iştirak edib.

Məlumat verilib ki, şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun olmayan park nadir dizaynda yenidən qurulub. Burada müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılıb, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarə meydanının yenidən qurulması işləri həyata keçirilib.

Parkın ərazisində yeni yaşıllıq sahələri yaradılıb, istismara yararsız, parkın ümumi görkəminə xələl gətirən tikili və qurğular ərazidən götürülüb. Mövcud ictimai-iaşə obyektlərinin fasadları müasir üslubda, parkın yeni layihəsinə uyğun təmir edilib, o cümlədən yeni işıq dirəkləri, eləcə də idman qurğuları və uşaq əyləncə meydançası yaradılıb. Mühəndis-kommunikasiya xətləri əsaslı şəkildə yenilənən park yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlərlə təmin edilib.

Nərimanov rayonu ərazisində yenidən qurulan Nərimanov parkı da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Nərimanov parkının yenidən qurulması bu il COP29-a ev sahibliyi edəcək ölkəmizdə elan olunan “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

## Nəbatat Bağı yeni görkəm alacaq

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir qədər bundan əvvəl Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak edib və Nəbatat Bağında görülən işlərlə tanış olublar. Təxminən 45 hektardan artıq ərazini əhatə edən Nəbatat bağında 247 növ ağac və 162 növ kol bitkisi qorunur. Yenidənqurma zamanı Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun 1935-1938-ci illərdə inşa edilən inzibati binası qəzalı vəziyyətdə olduğu üçün burada yeni bina tikilib. Beş mərtəbədən ibarət olan yeni binanın ümumi sahəsi 3700 kvadratmetrdir. Binanın birinci mərtəbəsi laboratoriya sektorlarından ibarətdir. Burada bitki ehtiyatları və etnobotanika, həmçinin toxum bankı, bitki introduksiyası şöbələri yerləşir. Binanın ikinci mərtəbəsində 80 nəfərlik akt zalı, üç laboratoriya, müdafiə şurası, Botanika İnstitutunun elmi şurasının katibliyi, mühasibatlıq yerləşir. Üçüncü mərtəbədə isə geobotanika, ictimaiyyətlə əlaqələr, eksperimental botanika və beynəlxalq əlaqələr şöbələri fəaliyyət göstərəcək. Ali bitkilər sistematikası və herbari fondu dördüncü mərtəbədə yerləşir. Botanika İnstitutunun Herbari Fondu 1936-cı ildə institut yarandığı vaxtdan fəaliyyət göstərir. Burada Azərbaycanla yanaşı, digər ölkələrin altı yüz minə yaxın flora növü qorunur.

Eyni zamanda, Mərkəzi Nəbatat Bağının 1937-ci ildə tikilmiş və tamamilə yararsız hala düşmüş 900 kvadratmetrlik aypara şəkilli inzibati binası da əsaslı təmir edilib. Mərkəzi Nəbatat Bağı ərazisində tikintisi davam etdirilən müasir tipli oranjereyaya da baxış keçirilib. Bildirildi ki, oranjereyanın eni 19, uzunluğu 47, hündürlüyü isə 15 metrdir. Daxilində yerdən 3 metr hündür körpü və hər iki qapını birləşdirən piyada yolu var. Oranjereya müasir tipli isitmə, soyutma və nəmləndirmə avadanlıqları ilə təchiz olunacaq. Üzərindəki şüşə sisteminin 40 ədədi avtomatik açılaraq mövsümə uyğun havalandırmanı təmin edəcək.

Qeyd edək ki, Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasəti məhz böyük siyasətçi Heydər Əliyevin rəhbərliyi dövründə formalaşmağa başlayıb. Hazırda Prezident İlham Əliyev tərəfindən ölkəmizdə bitki biomüxtəlifliyinin qorunması və səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilir. Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri məhz Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilib.

Hazırda Mərkəzi Nəbatat Bağında “Bitki ekologiyası”, “Dekorativ bitkilərin introduksiyası və seleksiyası”, “Qida və dərman bitkilərinin biokimyası”, “Oduncaqlı bitkilər”, “Tropik və subtropik bitkilər” laboratoriyaları ilə yanaşı, “Strateji inkişaf, beynəlxalq əməkdaşlıq və layihələrin idarə olunması”, “Bioloji kolleksiyalar”, “Bağçılıq və landşaft quruculuğu”, “Təchizat və xidmət” və digər şöbələr fəaliyyət göstərir.

***MÜBARİZ***

# 3 ölkənin diplomatları Bakıda...

## Siyasi dialoq inkişaf etdiriləcək

### Avstraliyanın yeni səfiri İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mayls Robert Armiteycin etimadnaməsini qəbul edib.



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev səfirin ölkəmizə səfərlər edəcəyinə və Azərbaycanın hökumət nümayəndələri ilə əlaqələrimizin gələcək inkişafı məsələlərinə dair səmərəli müzakirələr aparacağına ümidvar olduğunu bildirdi. Azərbaycan Prezidenti ölkələrimizin bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, iqtisadi-ticari əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı.

Siyasi münasibətlərə toxunan Prezident İlham Əliyev ölkələrimiz arasında səmərəli əlaqələrin olduğunu bildirdi, lakin investisiya imkanlarından istifadə və ticarət dövriyyəsinin artırılması sahəsində əməkdaşlığın hələ də lazımi səviyyədə olmadığını qeyd etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, səfir fəaliyyətində bütün bu sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcək.

Səfir Mayls Robert Armiteyc Azərbaycanda olmağından böyük məmnunluq hissi keçirdiyini bildirdi və qarşıda əlaqələrimizin genişləndirilməsi üçün görüləsi çox işin olduğunu qeyd etdi. O, xüsusilə iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.

Mayls Robert Armiteyc COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı. O, Azərbaycanın qısa vaxt ərzində COP29 Konfransının keçirilməsi üçün bütün zəruri hazırlıq işlərini gördüyünü məmnunluqla qeyd etdi, ölkəmizin kiçik ada dövlətlərinə dəstəyinin, xüsusilə kiçik ada dövlətlərinin qarşıdan gələn Zirvə toplantısında iştirakı məsələsini xüsusi vurğuladı.

Səfir qeyd etdi ki, Avstraliya regionda davamlı sülhün bərqərar olunmasında və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında maraqlıdır.

Bu xüsusda Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyinin irəli aparılması üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirərək, artıq regionda sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə, həmçinin ölkələrimiz arasında siyasi dialoqun inkişaf etdirilməsi, mədən sənayesi, yaşıl enerji, gəmiqayırma və biznes dairələri arasında işgüzar münasibətlərin yaradılması məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan Fransanın əsarət altında saxladığı xalqlara müstəqillik, azadlıq tələb edir

### İlham Əliyev Burkina Fasonun yeni səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Burkina Fasonun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vinta Somenin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Azərbaycanın Burkina Faso ilə münasibətlərin hərtərəfli inkişafında maraqlı olduğunu deyən Prezident İlham Əliyev ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu bildirdi. Dövlətimizin başçısı iqtisadi-ticari sahədə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi, Azərbaycanın Burkina Fasoya investisiya yatırması imkanlarının araşdırılmasının önəmini vurğuladı.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunan Azərbaycan Prezidenti, ilk növbədə, BMT-də, Qoşulmama Hərəkatında qarşılıqlı dəstəyin göstərilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın dörd il ərzində Qoşulmama Hərəkatına uğurla sədrlik etdiyini vurğulayaraq, ölkəmizin bu dövrdə xüsusi diqqət yetirdiyi mövzulardan birinin də müstəmləkəçilik, neomüstəmləkəçilik və bununla mübarizə məsələsinin olduğunu bildirdi. Bu xüsusda Fransanın həyata keçirdiyi neomüstəmləkəçilik siyasətinin ikrah hissi doğurduğunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın bu siyasətə qarşı öz səsini ucaltdığını və qanlı müstəmləkəçilik tarixi olan Fransanın bu gün də əsarət altında saxladığı xalqlara müstəqillik, azadlıq tələb etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın qeyri-hökumət təşkilatlarının da bu istiqamətdə beynəlxalq qeyri-hökumət hərəkatı çərçivəsində fəal iş apardığını bildirdi.

Fransanın ölkəmizə qarşı qərəzli mövqeyindən danışan Prezident İlham Əliyev Azərbaycanın öz torpaqlarını işğaldan azad edəndən sonra Fransanın əsl simasını nümayiş etdirdiyini, BMT-də, Avropa İttifaqında ölkəmizə qarşı ədalətsiz şəkildə fəaliyyət həyata keçirdiyini qeyd etdi.

Söhbət zamanı dövlətimizin başçısı Azərbaycanın Afrika İttifaqı yanındakı səfirinə Afrika ölkələri ilə daha sıx münasibətlərin qurulması, onlarla müxtəlif istiqamətlər üzrə ikitərəfli formatda konkret əməkdaşlıq məsələlərinin planlaşdırılması barədə də təlimat verildiyini qeyd etdi.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir, ilk növbədə, ölkəsinin lideri Brahim Traorenin salamlarını, eyni zamanda, dövlətimizin başçısının yenidən Prezident seçilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qoşulmama Hərəkatına uğurlu sədrlik etməsi münasibətilə təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara və təbriklərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Burkina Fasonun liderinə çatdırmağı xahiş etdi.

Səfir Vinta Some Azərbaycan ilə ölkəsinin strateji səviyyədə hərtərəfli əməkdaşlığa hazır olduğunu, yaxın vaxtlarda geniş tərkibli Azərbaycan nümayəndə heyətinin Burkina Fasoya səfər edəcəyini vurğuladı. O, ölkələrimiz arasında enerji, kənd təsərrüfatı, təlim, təhsil, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğunu qeyd etdi.

Vinta Some ölkəsinin Azərbaycanın müstəmləkəçiliyə qarşı mübarizədə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd etdi. O, Afrikanın sahil regionunda baş verən proseslər haqqında məlumat verdi, artıq qitədə panafrikanizm hərəkatının güclənərək yeni vüsət aldığını vurğuladı.

Səfir COP29-un təşkilində Azərbaycana uğurlar arzuladı və Burkina Fasonun da bu tədbirdə müvafiq səviyyədə təmsil olunacağını diqqətə çatdırdı.

## Azərbaycan-Pakistan əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub

### Prezident İlham Əliyev Pakistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Pakistana dövlət səfərini məmnunluqla xatırlayan Azərbaycan Prezidenti ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyin çox xoş təsir bağışladığını dedi, bunun ölkələrimiz və xalqlarımız arasında dostluğu, qardaşlığı və tərəfdaşlığı nümayiş etdirdiyini bir daha vurğuladı.

Dövlətimizin başçısı bu səfərin önəminə toxunaraq, əməkdaşlığımıza dair geniş sahələri əhatə edən məsələlərin müzakirə olunduğunu və sənədlərin imzalandığını məmnunluqla xatırladı. Prezident İlham Əliyev bu dövlət səfəri nəticəsində Azərbaycan-Pakistan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, səfər çərçivəsində müxtəlif sahələrdə, o cümlədən investisiya qoyuluşu və enerji sahələrində yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edildiyini vurğuladı. Dövlətimizin başçısı Pakistana dövlət səfəri zamanı qəbul olunmuş qərarların, əldə edilmiş razılaşmaların və imzalanmış sənədlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin iş apardığını bildirdi. Azərbaycan Prezidenti preferensial ticarət sazişinin önəmini qeyd edərək, bu sənədə yeni maddələrin əlavə edilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən işlərin həyata keçirildiyini vurğuladı.

Prezident İlham Əliyev ərazilərimizin işğalına görə Pakistanın Ermənistan ilə diplomatik əlaqələr qurmamasını, hətta torpaqlarımızın azad edilməsindən və suverenliyimizin tam bərpa olunmasından sonra da bunu etməməsini bir daha əsl dostluğun və qardaşlığın təzahürü kimi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistan rəhbərliyinin Vətən müharibəsi dövründə Azərbaycana göstərdiyi siyasi dəstəyin bizim üçün böyük önəm daşıdığını bir daha vurğuladı.

Azərbaycan Prezidenti səfir Qasım Mohiuddinə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən səfir Pakistan Prezidenti Asif Əli Zərdarinin və Baş nazir Məhəmməd Şahbaz Şərifin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da səmimi salamlarını Pakistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Ölkəmizə böyük məhəbbət hissi bəslədiyini qeyd edən səfir Azərbaycan kimi gözəl bir ölkədə Pakistanı təmsil etməkdən qürur hissi duyduğunu bildirdi.

Səfir dövlətimizin başçısının Pakistana dövlət səfərini zamanı müəyyən olunmuş strateji əməkdaşlıq istiqamətlərinin həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd etdi. O, Azərbaycanın Pakistana dəstəyini, xüsusən Cəmmu və Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun qaydada həllinə dair ölkəmizin ədalətli mövqeyinin önəmini vurğuladı.

## XİN xəbərdarlıq edib



Azərbaycan Xarici İşlər Nazirliyi ölkə vətəndaşlarına Fələstin və İsraildəki vəziyyətlə bağlı xəbərdarlıq edib.

Nazirliyin yaydığı açıqlamada Fələstin Dövlətinin və İsrail Dövlətinin yerləşdikləri regionda sürətlə dəyişən təhlükəsizlik vəziyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası vətəndaşlarına zəruri olmadığı təqdirdə həmin ölkələrə səfər etməmələri tövsiyə olunur.

Eyni zamanda, bildirilir ki, həmin ölkələrdə yaşayan və səfərdə olan Azərbaycan Respublikası vətəndaşlarının mühafizə və təhlükəsizlik qaydalarına riayət etmələri, əhalinin sıx toplaşdığı yerlərə getməmələri zəruridir.

## Toyvo Klaarın yeni "səlahiyyəti"...

### Qərbi Azərbaycan İcması Aİ rəsmisinin ölkəmizlə bağlı qərəzli fikirlərinə münasibət bildirib

Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar 2024-cü il avqustun 4-də mətbuata verdiyi açıqlamasında Azərbaycanın daxili işlərinə qarışan və Ermənistandan qovulmuş azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verən fikirlər səsləndirmişdir.

T. Klaar regionda köçkünlük problemi və qayıdış hüququndan danışarkən bu hüququ müstəsna olaraq Azərbaycandan könüllü olaraq köçüb getmiş ermənilərə şamil etmiş və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnun olduğunu inkar etmişdir. Bununla kifayətlənməyən Klaar Azərbaycanın Qarabağ regionundan köçüb getmiş ermənilərinin xüsusi hal olduğunu vurğulamışdır.



Göründüyü kimi, Aİ nümayəndəsi özünə insanlara etnik mənsubiyyətinə görə hüquq vermək "səlahiyyəti" icad etmişdir.

Bu fikirlər Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: "Cənab Klaarın Ermənistandan zorla qovulmuş azərbaycanlılara münasibətdə sərgilədiyi bu münasibət onun özünün və təmsil etdiyi qurumun etnik və dini əsasda ayrı-seçkiliyinin sübutudur. Aİ rəsminin Qarabağ ermənilərinin məsələsini xüsusi vurğulaması isə bu qurumun münaqişənin həll edilməsini və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilməməsinin göstəricisidir. Bütün bunlar, eləcə də Aİ-nin Ermənistana hərbi yardım ayırması, bu ölkənin sanksiya qaçaqmalçılığı yolu ilə külli miqdarda vəsait əldə edib silahlanmaya sərf etməsinə göz yumması və Fransa kimi Aİ üzv ölkələrinin Ermənistana böyük miqdarda silah satması regionda gərginlik yaratmağa xidmət edir.

Qərbi Azərbaycan İcması Aİ rəsmisinin Ermənistandan qovulmuş azərbaycanlılara qarşı irqçi ayrı-seçkiliyini, Azərbaycanın daxili işlərinə qarışmasını və regionda gərginlik yaratmağa xidmət edən bəyanatını sərt şəkildə qınayır. İcma Aİ-dən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsinə uyğun olaraq insanların hüquq bərabərliyi prinsipinə hörmət etməyi, Ermənistandan qovulmuş azərbaycanlılara münasibətdə nümayiş etdirdiyi ayrı-seçkiliyə son verməyi və onların qayıdış hüquqlarına hörmət etməyi tələb edir".

# Fransa Azərbaycandan üzr istəməlidir!

Olimpiadaların tarixi ənənələri var. Belə ki, Olimpiya Oyunları qitələrin təmsilçiləri arasında gərgin idman mübarizəsi olmaqla yanaşı, həm də bir qayda olaraq sülh, barışıq, xoş niyyət rəmzi kimi qəbul olunub. Təşkilatçılar ənənələrə əsaslanmaqla həmişə ev sahibliyi etdikləri olimpiadaları siyasi məqsədlərdən uzaq saxlamağa çalışıblar.

Bu il Fransanın ev sahibliyi etdiyi 33-cü Yay Olimpiya Oyunlarından da gözləntilər eyni idi. Güman olunurdu ki, Yelisey Sarayı qitələrin idmançılarının Parisdə bir araya gəlmələri fürsətini dünyadakı narahatlıqların aradan qaldırılması yolunda bir imkana çevirmək üçün hər şeyi edəcək. Lakin bu gözləntilər elə Olimpiadanın açılış tədbirindəcə özünü nəinki doğrultmadı, hətta məlum oldu ki, Yelisey Sarayı ayrı-ayrı ölkələrə qarşı qərəz ssenarilərini həm də Olimpiya Oyunları üzərindən həyata keçirməyi qarşısına məqsəd qoyub. "Paris 2024"ün Sena çayında düzənlənən açılış tədbirində Azərbaycana qarşı yol verilən qərəz bunun əyani təsdiqidir.

## Yelisey Sarayının suflyoru olan "France 2" Azərbaycana qarşı...




Yelisey Sarayının danışan dili hesab olunan "France 2" sanki Azərbaycana qarşı növbəti qarayaxma kampaniyasına başlamaqdan ötrü fürsət gözləyirmiş. Bu kanal "Paris 2024" açılış tədbirindən yayımladığı reportajında Azərbaycana qarşı siyasi təxribatla yadda qalıb. Belə ki, canlı yayımında aparıcılar Azərbaycan idmançılarına qarşı təxribat xarakterli açıqlamalar veriblər. Erməni komandasının keçidi zamanı kanalın aparıcılarından biri öz simpatiyasını gizlətməyib və "Ermənistan, bizim erməni dostlarımız, tarixən fransızların ürəyinə yaxın bir ölkə", - deyə bildirib. Aparıcı həmçinin Qarabağdakı qondarma rejimin tarixdən silinməsi ilə bağlı qərəzli fikirlər səsləndirib. Bunun ardınca Azərbaycan komandasının keçidi zamanı aparıcı ölkəmizi "Ermənistanla ərazi məsələsində münaqişədə olan Qafqaz respublikası" kimi təqdim edib.

Ev sahibi tərəfindən Cənubi Qafqazın iki ölkəsinin dünya auditoriyasına təqdim olunmasındakı fərq göz qabağındadır. Bir ölkəyə - Ermənistana rəğbət, digər ölkəyə - Azərbaycana qərəz açıq-aydın ifadə edilir. Bu, əsl siyasi ritorikadır və bunu "France 2"nin özbaşına etdiyini düşünmək sadəlövhlük olardı. Bu kanal bilavasitə Yelisey Sarayının nəzarəti altında fəaliyyət göstərir və proqram siyasətini oradan gələn siyasi sifarişlər əsasında qurur. Makron iqtidarının Azərbaycana qarşı dözümsüz, beynəlxalq hüquq normalarından uzaq olan siyasəti hər kəsə yaxşı bəllidir. Bu, o hakimiyyətdir ki, təcavüzkar dövlət olan Ermənistana davamlı dəstək göstərir. Makron postmüharibə dövründə Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində pozucu rol oynayır. Məhz onun təqsiri ucbatından Brüssel formatı iflasa uğrayıb. Yelisey Sarayının planlarına uyğun olaraq Ermənistan yeni müharibəyə, revanşizmə təhrik edilir. Məğlub ölkə sülh sazişini imzalamaq üçün üzərinə düşən öhdəlikləri yerinə yetirmək əvəzinə, sürətlə silahlanmaya üstünlük verir və burada Fransa xüsusi rol oynayır. Makron hakimiyyətinin qərəzi bu ölkənin parlamentinin Azərbaycana qarşı qəbul etdiyi çoxsaylı qətnamələrdə ifadə olunub. Bir sözlə, rəsmi Paris hakimiyyətin bütün qollarını ölkəmizin üzərinə hücuma səfərbər edib. Belə görünür ki, telekanalllar da bu kampaniyada yer alırlar. Onu da qeyd edək ki, "France 2" Olimpiada ərəfəsində Azərbaycanın ünvanına çamur atan yeganə Fransa kanalı deyil. Bugünlərdə Fransanın TF1 kanalında "Xarici müdaxilələr: Azərbaycan Fransada sabitliyi necə pozmağa çalışır" adlı bədnam reportaj yayımlanıb. Bu reportajın "Paris 2024" ərəfəsində təqdim olunması Yelisey Sarayının beynəlxalq tədbir üzərindən ölkəmizə qarşı gözdənsalma kampaniyasını işə saldığına aid daha bir nümunədir. TF1 efir siyasətində Azərbaycanı və ölkəmizin təklifləri əsasında yaradılan Bakı Təşəbbüs Qrupunu (BTQ) hədəf seçsə də, əslində sözügedən videoreportaj xarici müdaxilə bəhanəsi ilə Fransanın müstəmləkə altında saxladığı ərazilərdəki beynəlxalq hüququn və fundamental insan hüquqlarının kobud pozuntularını ört-basdır etmək cəhdindən başqa bir şey deyil. Nə Azərbaycanın, nə də BTQ-nin hansısa bir ölkənin siyasətinə qarışmaq, müdaxilələr etmək kimi bir niyyəti yoxdur. Ölkəmizi, BTQ-ni 14 min kilometr uzaqda iş aparmaqda ittiham edən Fransa mediası öz hökumətinə sual verə bilər ki, Fransadan 17 min kilometr uzaqda yerləşən müstəmləkə ərazilərinin bu ölkəyə nə aidiyyəti var? Yeganə bağlılıq sümürmə, talançılıq, istismar ola bilər ki, bu da ikrah doğurur və müasir dünyada heç bir vəchlə qəbul edilə bilməz.



International Olympic Committee

NOC Relations Department

Farid Gayibov
Minister of Youth and Sports
Republic of Azerbaijan
Chingiz Huseynzade
Vice-President National Olympic Committee Republic of Azerbaijan
Baku, Azerbaijan

Lausanne, 02 August 2024

Dear Minister Gayibov, Dear Mr. Huseynzade,

Thank you for your letter of 27 July 2024, addressed to the IOC President, Mr Thomas Bach.

We would like to take this opportunity to convey our most sincere apologies for the words used by the reporters of France2 television during the retransmission of the Paris 2024 Olympic Games Opening Ceremony. Such words are not in line with the principles and the values that the International Olympic Committee promotes through sport and through the Olympic Games. Consequently, we have been in contact with all the responsible parties to remind them about our principles and working protocols.

Please rest assured that clear indications have been delivered to avoid any future references using similar terms.

We are most grateful for your kind understanding, and we wish you all the best for successful results for your athletes during the Paris 2024 Olympic Games.

Yours sincerely,

James Macleod
Director of NOC Relations

Maison Olympique, 1007 Lausanne, Switzerland | Tel. +41 21 621 6111 | Fax +41 21 621 6216 | www.IOC.org

## Azərbaycan tələb edir!

Yelisey Sarayının nəzarətində olan "France 2" kanalının Olimpiadanın açılış tədbirindən yayımladığı reportajda ölkəmizə qarşı məqsədli siyasi təxribata yol verilməsi Azərbaycanın gecikməyən etirazına səbəb oldu. Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsi Paris Olimpiadasında Azərbaycana qarşı təxribatla bağlı bəyanat yaydı. Reportajın kəskin şəkildə qınanıldığı sənəddə oxuyuruq: "Bu, faktiki olaraq Olimpiya Xartiyasının Əsas Prinsiplərinin pozulmasıdır. Həmin prinsiplər son illərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının bir neçə qətnaməsi ilə, o cümlədən açıq şəkildə "Olimpiya Xartiyasının əsas prinsiplərinin etirafı" (A/RES/78/10) ilə tanınıb və dəstəklənib. Xartiyada açıq şəkildə qeyd edilib ki, "BOK-un missiyası olimpizmi bütün dünyada təbliğ etmək, Olimpiya Hərəkatına rəhbərlik etmək, idmana və idmançılara qarşı hər hansı siyasi və ya kommersiya istismarına qarşı çıxmaqdır".

Bəyanatda bildirilir ki, baş vermiş halla bağlı Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə rəsmi olaraq etiraz məktubu göndərilib. Məktubda qeyd olunub ki, Fransanın dövlət telekanalının Azərbaycana qarşı bu cür hörmətsiz münasibəti Olimpiya Xartiyasının açıq-aşkar pozulmasıdır. Bu cür təbliğat oyunların ruhuna zidd olmaqla yanaşı, Azərbaycan və Ermənistan arasında sülh səylərini pozmağa xidmət edir. Buna görə də BOK-dan Paris-2024 Olimpiadası zamanı idmanın siyasiləşdirilməsinə qarşı qəti mövqe göstərilməsi, açıq bəyanat verməklə Fransa hökumətinə, Fransa Milli Olimpiya və İdman Komitəsinə, eləcə də adıçəkilən telekanala etiraz bildirilməsi xahiş edilib.

Bütövlükdə, Azərbaycan cəmiyyəti "France 2"nin bədnam reportajını qınaq obyektinə çevirib. "2024-cü il Paris olimpiadasının açılışı vaxtı Fransanın "France 2" ictimai televiziya kanalının aparıcısı Ermənistanın və Azərbaycanın komandalarını təqdim edərkən, ayrı-seçkilik xarakteri daşıyan, olimpiya dəyərlərinə və beynəlxalq hüquqa zidd siyasi bəyanatlar səsləndirilib. Fransa hökumətinin sifarişi ilə atılması şübhə doğurmayan bu addımla Azərbaycanın ərazi bütövlüyünə xələl gətirilməyə və bölgədə gərginliyi qızışdırmağa cəhd edilib". Bu barədə Qərbi Azərbaycan İcmasının (QAİ) bəyanatında bildirilir.

Qeyd olunub ki, olimpiadanın açılışı mərasimində milyardlarla insanın heysiyyətinə toxunan rəzalət nümayişlərini də nəzərə alsaq, Fransa tərəfinin rasionallığı tamamilə şübhə altındadır: "Qərbi Azərbaycan İcması 2024-cü il Paris olimpiadasında Azərbaycana qarşı yol verilmiş təxribatı sərt şəkildə qınayır və Fransadan bu əməllərinə son verməyi tələb edir".

## BOK Fransaya görə Bakıdan üzr istədi

İyulun 26-da Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarının açılış mərasimində ev sahibi dövlətinə məxsus "France2" telekanalının müxbirinin Azərbaycana qarşı qərəzli ifadələri ilə bağlı Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinə göndərilən rəsmi etiraz məktubuna cavab gəlib.

Gənclər və İdman Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, cavab məktubunda Beynəlxalq Olimpiya Komitəsi Paris-2024 Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı "France 2" telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib.

Məktubda qeyd edilib ki, bu cür sözlər Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təbliğ etdiyi prinsip və dəyərlərə ziddir. Buna görə də, bu məsələyə cavabdeh qurum və şəxslərlə əlaqə saxlanılıb və gələcəkdə belə hallara yol verilməməsi üçün BOK-un iş prinsipi və protokolları xatırladılıb.

## Fransa da BOK-dan nümunə götürməlidir

Rəsmi Paris də BOK-dan nümunə götürüb Azərbaycandan üzr istəməlidir. "Paris-2024" Yay Olimpiya Oyunlarının yayımçısı olan "France 2" telekanalının ölkəmizə qarşı tutduğu qərəzli mövqeyə və bu hadisədən Beynəlxalq Olimpiya Komitəsinin Azərbaycana üzrxahlıq məktubunu nəzərə alaraq, Fransa hökumətinin də Azərbaycandan rəsmi üzr istəməsini gözləyirik, - deyə Gənclər və İdman Nazirliyinin məlumatında bildirilib.

Azərbaycan Xarici İşlər Nazirliyində də Fransanın məlum reportajla bağlı ölkəmizdən üzr istəməli olduğu bildirilir. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Yay Olimpiya Oyunlarının açılış mərasimində "France 2" telekanalının müxbirinin ölkəmizə qarşı səsləndirdiyi qərəzli fikirlər ilə bağlı yerli medianın sualını cavablandırıb. Mətbuat katibi bununla bağlı deyib: "Məlum olduğu kimi, Beynəlxalq Olimpiya Komitəsi tərəfindən Azərbaycanın rəsmi etiraz məktubuna münasibət bildirilib, "France2" telekanalının səsləndirdiyi qəbuledilməz ifadələrlə bağlı ölkəmizdən üzrxahlıq edilərək, bu ifadələrin Beynəlxalq Olimpiya Komitəsinin idman və Olimpiya Oyunları vasitəsilə təşviqinə çalışdığı prinsiplərə və dəyərlərə bir araya sığmadığı vurğulanıb.

Fransanın rəsmi dövlət kanalında səsləndirilmiş və Olimpiya Oyunlarının siyasiləşdirilməsinə xidmət göstərən qərəzli fikirlər Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsi olduğu, buna məqsədyönlü şəkildə yol verildiyi qənaətindəyik.

Bu baxımdan məsuliyyət daşıyan tərəfin, ilk növbədə, Olimpiya Oyunlarının ev sahibi Fransa olması səbəbindən bu ölkənin də üzrxahlıq edəcəyini gözləyir, Azərbaycana qarşı bu kimi addımların gələcəkdə təkrarlanmamasını tələb edirik".

Beləliklə, indi, necə deyərlər, top Fransanın meydanındadır. Rəsmi Paris Azərbaycana qarşı yanlış siyasət apardığını etiraf etməli və ölkəmizdən üzr diləməlidir. Əks halda, bu, Yelisey Sarayının məsuliyyətsizliyi, Olimpiya ruhuna və irsinə, eləcə də beynəlxalq birliyə qarşı hörmətsizliyi anlamında qəbul ediləcək.

*Mübariz ABDULLAYEV*

# Ənənə bərpa olunur



## Laçın və Kəlbəcər yaylaqlarına köç edən fermerlərin sayı artır

İşğaldan azad olunmuş ərazilərdə aqrar layihələrin icrasına özəl sektorun cəlb edilməsi genişlənməkdədir. Bu ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın təmin edilməsi ilə paralel şəkildə biznes fəaliyyətinə dəstək verilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq əkinçilik təsərrüfatlarının və heyvandarlıq komplekslərinin yaradılması nəzərdə tutulub və həmin prioritet üzrə Laçın, Kəlbəcər və digər rayonların ərazilərinə mal-qaranın və arı ailələrinin yay köçürülməsi təmin edilməkdədir.

Fermerlər Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) elektron portalında qeydiyyatdan keçərək Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında öz heyvandarlıq təsərrüfatlarını qururlar. Tələblərə əsasən, köç edən fermerlərin arı ailəsinin sayı ən azı 40, xırdabuynuzlu heyvanların sayı isə 200 baş və daha artıq olmalıdır.

2023-cü ildən başlanılan bu proses 2024-cü ildə daha da genişləndirilib və onlarla fermer təsərrüfatının Laçın və Kəlbəcər yaylaqlarına köç etməsi öz həllini tapıb. Belə ki, may ayından başlayaraq 9054 baş xırdabuynuzlu, 645 baş iribuynuzlu, 57 baş təkdırnaqlı heyvanların yaylaqlara köçürülməsi təmin edilib. Ötən illə müqayisədə cari ildə yaylaqlara 5357 baş çox xırdabuynuzlu, 469 baş çox iribuynuzlu heyvan aparılıb. Həmçinin cari ildə rayonda 37 arıçı 1510 arı ailəsini işğaldan azad edilmiş ərazilərə köçürmək üçün müraciət edib ki, bu da ötən illə müqayisədə 673 arı ailəsi çox olub. Onlardan 32 arıçının 1302 arı ailəsi Cəbrayıl rayonuna, 5 arıçının 208 arı ailəsi isə Laçın rayonuna köçürülüb.



İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan əhaliyə iri və xırdabuynuzlu heyvanların verilməsi, arıçılıq təsərrüfatlarının yaradılması, rayonlara görə ixtisaslaşmanın yenidən dəqiqləşdirilməsi aqrar sahənin inkişafı istiqamətində atılan ilk addımlardır. Bu, işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpa olunduğunu və bu bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyası istiqamətində tədbirlərin irəlilədiyini göstərir.

Xatırladaq ki, erməni işğalı dövründə bu bölgənin kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsinin - 250 min hektar əkin, 352 min hektara yaxın örüş-otlaq və biçənək sahəsi ölkə üçün ən münbit torpaq bazası və istehsal gücü olub. İndi bu ərazilərin əkin dövriyyəsinə cəlb olunması respublika üzrə taxıl, pambıq, kartof, üzüm, tütün, tərəvəz məhsullarının istehsalının ən azı 25 faiz artmasına səbəb olacaq ki, bu da ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu ərazilərdə heyvandarlıq potensialı da olduqca yüksəkdir. Dövlətin dəstəyi ilə damazlıq heyvan cinslərinin artırılması üçün təsərrüfatların yaradılması, qoyunçuluğun inkişafı üçün cins heyvanların ayrılması, arıçılığın inkişaf etdirilməsi, otlaq sahələrinə uyğun xırdabuynuzlu kooperativ və təsərrüfatların təşkili kimi tədbirlər də həyata keçirilir ..

Heyvandarlıq komplekslərinin yaradılması ilə yanaşı, azad ərazilərdə əkinçiliyin bərpası üçün zəruri işlər davam etdirilməkdədir. Belə ki, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin dəqiq uçotunun aparılması və torpaq kadastrının yaradılması, regionun rəqəmsal topoqrafik xəritəsinin hazırlanması və inventarlaşdırılması, xəritələndirilməsi və elektron məlumat bazasının yaradılması işləri yekunlaşmaqdadır. Bundan sonra isə bu ərazilərdə torpaq islahatlarına start veriləcək və dövlət, bələdiyyə və xüsusi mülkiyyət bölgüsü təmin olunacaq. Qeyd edək ki, Azərbaycan 1996-cı ildə MDB məkanında ilk dəfə aparılan və uğurla nəticələnən torpaq islahatı təcrübəsi mövcuddur. Bu təcrübə azad olunmuş ərazilərdə torpaq islahatının aparılması üçün də konseptual baza rolu oynamış olacaq. 1996-cı ildə islahat aparılan zaman torpaq sahələrinin dəqiq inventarlaşdırılması aparılmadığına görə bəzi hallarda torpaqlarla bağlı dəqiq uçot məlumatlarının olması problemi var idisə, azad olunmuş torpaqlarda müasir informasiya texnologiyaları əsasında elektron uçot sistemi yaratmaq imkanı var. Həmçinin ölkənin digər regionlarında aparılan torpaq islahatı sosial ədalət prinsipinə uyğun olub, lakin islahatdan sonra torpaqların kiçik bloklara parçalanması iqtisadi səmərəliliyi aşağı salıb. Bu baxımdan azad olunmuş ərazilərdə torpaq islahatı aparılarkən torpaqların özəl mülkiyyətə verilməsi zamanı inkişaf etmiş dövlətlərin müasir aqrar modellərinin öyrənilməsi və tətbiqi də istisna deyil. Eləcə də münaqişə ilə üzləşmiş ölkələrin aqrar təsərrüfatlarının yaradılması modelləri də diqqətdədir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının İraq və Əfqanıstanda müharibədən sonrakı dövrdə aqrar sahədə həyata keçirdiyi layihələr bu baxımdan təcrübə ola bilər. Eləcə də yüksək aqrar inkişaf yolu keçmiş Mərakeşin mövcud aqrar təcrübəsindən yararlanmaq mümkün hesab edilir ki, hökumət üzvlərinin mərakeşli həmkarları ilə müzakirələrində bu məsələyə toxunulub. Eləcə də işğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatına maraq göstərən xarici investorların öz ölkələrinin modelini gətirmək mümkündür. Belarus bu bölgədə nəhəng aqrar komplekslər və şəhərciklər yaratmaq niyyətindədir ki, bu da kənd təsərrüfatında yeni çığır aça bilər.

Nəticədə Azərbaycanda həmin məhsulların xaricdən idxalı da dayanmış olacaq ki, bu da qiymət sabitliyinə də müsbət təsir göstərəcək. Həmin ərazilərdə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi əhalinin ərzaqla təminatı ilə yanaşı, geniş ixracat üçün də əsaslı şərait yaradır. Kənd təsərrüfatı baxımından mühüm potensiala malik ərazilərin inkişafı Azərbaycanın regionda iqtisadi baxımdan daha da güclənməsində və iqtisadi təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayacaq.

*ELBRUS*

# İlk dayanacaq qəhrəman Nüvədi kəndi olacaq

## Nüvədinin sonuncu işğalından 33 il keçir

*"Əminəm ki, gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar!"*

***İlham Əliyev***



Zəngəzur sıra dağlarının cənub-şərq ətəklərində salınmış, kənd camaatının rəyi soruşulmadan 1929-cu ildə Ermənistana verilmiş Nüvədi kəndi Araz çayının sol sahilində, bəzi yerlərdə Arazın 15-20 metrliyindən keçən Mincivan-Culfa dəmir yolundan təxminən 1,5-2 kilometr aralıda yerləşir. Başlanğıcını Hüseynbəy çimənliyindən alıb Araz çayına tökülən, uzunluğu təxminən 15-17 km olan Nüvədi (Sələnc) çayının sağ və sol sahillərində, Tütlar dibi adlanan ərazidən başlayaraq iki dağ arasındakı 2 kilometrlik ərazidə salınmış, 1991-ci il avqust ayının 8-nə kimi azərbaycanlıların yaşadığı qədim kənddir.

Ta keçmişdən əhalinin əsas peşəsi maldarlıq (davarçılıq) olmuşdur. Sonralar təbii şəraitə davam gətirə bilməyib qonşu dağ kəndlərindən Nüvədiyə köçən tayfalar bağçılıqla da (üzüm, əncir, nar və s.) məşğul olublar. Deyilənlərə görə, meyvə ağacları, xüsusən də nar kolları buraya XIX əsr ədəbiyyatımızın böyük nümayəndəsi Seyid Əbülqasim Nəbatinin (1812-1873) vətəni, Cənubi Azərbaycanın Qaradağ vilayətinin Dizmir mahalının Araz çayı sahilindəki Üştibin qəsəbəsindən gətirilmişdir. Elmi ədəbiyyatda Atdişi adlanan şirəli, iri dənəli nadir nar növü də kəndə Güney Azərbaycanın Yez kəndindən gətirilib. Nüvədililər indi də bu kimi bir sıra nadir ağac növlərini yaşadıqları bölgələrdə qoruyub saxlayır, ölkəmizə yayırlar. 1997-2000-ci illərdə Türkiyə Respublikasının Van şəhərində işləyərkən həmin Atdişi (Yez) nar növünə orada da rast gəldim. Cənubi Azərbaycandan 50-60 kilometr məsafədə yerləşən Vana da bu növ nar kolları İrandan gətirilmişdir.

İnsanın ilkin törəmə mənbəyi hələ də sirr olaraq qalır. Füzuli şəhərindən 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, daş dövrü insanlarının yaşadığı Azıx mağara kompleksinin 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə AMEA-nın "Paleolit Arxeoloji Ekspedisiyası" tərəfindən aşkar edilməsi Cənubi Qafqazın qədim yaşayış yeri olması haqqında qəti fikir söyləməyə imkan verir. Mağarada Quruçay mədəniyyəti, Aşel mədəniyyəti və Mustye mədəniyyəti dövründə yaşayış olduğu müəyyən edilmişdir. Arxeoloji qazıntılar zamanı Azıx mağarasında bir neçə daş məmulatı ilə birlikdə ibtidai insana məxsus çənənin də aşkar olunması, çənə üzərində professor Dəmir Hacıyevin apardığı elmi-tədqiqat işləri də əvvəl deyilənləri sübutdur. Bütün bunlar göstərir ki, insan bu yerlərdə çox-çox qədimdən yaşayıb, daha ermənilər kimi son 200 ildə bu torpaqlara köçməyib.

Ümummilli Lider Heydər Əliyev demişdir: "...XX əsrin 20-ci illərində, yeni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikaların sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı və başqaları Ermənistana verilibdir. Bununla əlaqədar Zəngəzurun Araz çayı sahilində yerləşən, qədim Azərbaycan torpağı olan Mığrı rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır".

Nüvədi kəndi Meğri ərazisi ilə birlikdə Ordubad qəzasına daxil edilərək, 1849-cu ildə yaradılmış İrəvan quberniyasına, bir neçə il sonra isə mərkəzlə məsafə uzaq olduğuna görə Gəncə quberniyasinin Zəngəzur qəzasına qatılmışdır. Zəngəzur 1920-ci ildə Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikasına veriləndən sonra Zəngilan rayonu ilə sərhəddə yerləşən Nüvədi kəndi 1929-cu ilə qədər Cəbrayıl qəzasına tabe olmuşdur. Nüvədililər hər hansı bir sənəd almaq üçün və ya məhkəmə işləri ilə bağlı Cəbrayıl qəzasının mərkəzi olan Malakan şəhərinə gedərmişlər. Həmin Malakan şəhərinin adı sovet dövründə dəyişdirilərək əvvəl Qarabulaq (Böyükbulaq), sonra Karyagin, 1959-cu ildən isə dahi Azərbaycan şairinin şərəfinə Füzuli şəhəri adlandırılmışdır.



Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası fəhlə, kəndli, qızıl ordu və matros deputatları sovetlərinin Mərkəzi Komitəsi Rəyasət Heyətinin 18 fevral 1929-cu il tarixli iclasının qərarı ilə Nüvədi, Ernəzir və Tuğut kəndləri öz torpaqları ilə Azərbaycan SSR-in Cəbrayıl qəzasından Ermənistan SSR-in Mığrı qəzasının inzibati idarəçiliyinə verilmişdir (3 №-li Protokol). Bu sənədə 26 noyabr 1968-ci ildə Azərbaycan KP MK-nın Bürosunda da baxılıb, Azərbaycan SSR Ali Sovetinin 7 may 1969-cu il tarixli fərmanı ilə sənəd "qanuniləşdirilib", kəndlər Zəngilan rayonunun tərkibindən çıxarılıb. Nüvədililər dəfələrlə yuxarı instansiyalara müraciət etsələr də, hüququ əsası olmayan bu fərmanı ləğv etdirə bilməyiblər.

Tarixi faktlar sübut edir ki, təxminən 1000-1500 illik keçmişi olan Nüvədi kəndi Sələnc çayının kənarında yerləşən, xarabalığa çevrilmiş Kəndçayı kəndi və Ataman, Angizet, Qarçinik, Ernəzir, Sultan Səlim kimi digər qədim dağ kəndlərinin hesabına yaradılmışdır. Nüvədililər öz kəndlərinin əsasının qoyulmasını iki əfsanəvi şəxsin - Məlik Əbil və Məlik Abbasın adı ilə əlaqələndirirlər. Çox-çox illər əvvəl bu iki əmioğlu yaxın adamları ilə birgə Kəndçayı adlanan yerdən köçüb gələrək indiki Nüvədinin şimal tərəfində, Sələnc çayı sahilində kənd salmış, kəndin adını burada yaşamış ulu babaları Kəlba Kazımın şərəfinə Kazımlı qoymuşlar. Köhnə kənd xarabalıqlarına baxarkən söyləmək olar ki, Sultan Səlimdə, Qaraçı yurdunda (Qərçinik), Kəndçayıda, Peyğəmbər izində, Əbdül-Atada, Cavgittə, Ataman düzündə, Ernəzirdə (Yernəzir) və s. ərazilərdə insanlar tayfa-tayfa yaşayırmışlar. Təbiətin yaratdığı çətinliklər bu tayfaları bir yerə toplanıb birgə yaşamağa məcbur etmişdir. Kazımlılar da yaz vaxtı daşqından çox ziyan çəkdiklərinə görə indiki Nüvədi ərazisinə köçmüşlər.

Nüvədinin adı haqqında bir neçə müxtəlif fərziyə, fikir var. Onlardan ikisini açıqlamaq istəyirəm. Kazımlılar onu "Novdeh", yəni "Yenikənd" və ya "Təzəkənd" (farsca "nov" yeni, təzə, "deh" isə kənd deməkdir) adlandırmışlar.

Atam Əhmədəli Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" (Bakı, "Elm", 2003-cü il, 581s., 2-ci nəşr Bakı, "Elm", 2023-cü il, 482 s.) monoqrafiyası bu ərazilərin ən qədim Azərbaycan torpaqları olduğunu bir daha təsdiqləyir. Əhmədəli müəllim toponimlərin izi ilə gedərək kəndin ilk adının Nohvadı ("noh" farsca doqquz deməkdir) - doqquz vadinin kəsişdiyi ərazidə oldugu üçün Nohvadi adlandırıldığını söyləyirdi. Bu söz zamanla dəyişərək Nügədi, Nüyədi, Nüvədi və s. şəkillərə düşmüsdür.

Nüvədililərin onuncu ulu babası Əbil kişiyə məlik rütbəsi I Şah Abbasın (1587-1629) dövründə verilmişdir. Xatırladım ki, Şah Abbas Şah İsmayılın (1501-1524) nəticəsi, Şah Təhmasibin (1524-1576) nəvəsi, Məhəmməd Xudabəndinin (1578-1587) oğludur.

Xatirələrdə yaşayan onuncu babamız Əbil kişinin ölüm ayağında Nüvədinin, Kəndçayının yurd yerlərini, vətəninin səfalı yaylaqlarını yada salıb çəkdiyi bayatılar nüvədililərin dilindən indi də düşmür:

*Əzizim dilə bir də,*
*Savxanı dilə bir də.*
*İçəydim Kəhlan suyun,*
*Çıxaydım Dülə bir də...*

Bayatıda anılan Savxa, Dül yurdu, Kəhlan bulağı çağdaş Nüvədi gənclərinin görmədiyi kəndimizin dilbər guşələrindəndir.

Qədim Kəndçayı kəndinin sağında, 1,5-2 km hündürlükdə yuxarı dağ Əbdül-Ata, aşağısında isə dərə Əbdül-Ata ziyarətgahı yerləşir. 1991-ci ildə Nüvədi ermənilər tərəfindən üçüncü dəfə işğal olunana qədər kənd camaatı həmin abidələri tez-tez ziyarət edirdi.

Nüvədi kəndindəki Qarqar yazıları öz qədimliyi, mükəmməlliyi, ümumtürk tarixi üçün əhəmiyyəti baxımından "Orxon-Yenisey" abidələrindən geri qalmır. Kənd ərazisində yerləşən Baba Hacı ziyarətgahını tədqiqatçılar Babəkin adı ilə əlaqələndirirlər.

Qərbi Zəngəzurun Mığrı rayonunun Nüvədi kəndində anadan olmuş bir azərbaycanlı kimi bu bölgə haqqında bildiklərimi oxuculara çatdırmağı özümə borc bilirəm. Doğma yurdumuzu parçalayan, Naxçıvanı Azərbaycanın qalan hissəsindən ayıran 45 kilometrlik məsafənin 24 kilometri Nüvədi kəndinin ərazisinə düşür. İşğala qədər Naxçıvana və İrəvana gedən qatarlar Zəngilan rayonunun qonşu Ağbənd kəndi ilə Mığrı rayonunun Astazur kəndi arasında (Ağbənd stansiyasından sonra) üç yerdə - Nüvədi ərazisində yerləşən Sığırtda, sonra stansiya Nüvədidə (Gəmidüzü), daha sonra razyezd Nüvədidə bir neçə dəqiqə dayanırdı. Razyezd Nüvədidən ermənilər yaşayan Astazur kəndinə kimi ərazi sərt dağlıq olduğuna görə dəmiryol xəttinin bu ərazidən keçən hissəsini bəzən Araz çayından 15-20 metr məsafə ayırır. Texniki imkanların çox da böyük olmadığı bir dövrdə dəmiryol xəttinin keçməsi üçün həm Sığırtda, həm də razyezd Nüvədidə tunel qazılmışdır. Həmin tunelləri yerli sakinlər SSRİ dövləti tərəfindən yaradılmış qarnizondan maaş almaqla mühafizə edirdilər. Sığırt və razyezd Nüvədidə yerləşən sərhəd zastavaları Araz çayı boyu çəkilmiş tikanlı məftillərə elektrik cərəyanı buraxılmaqla rus əsgərləri tərəfindən qorunurdu. Nüvədi kəndinin suvarılan torpaqlarına Araz çayından su vurmaq üçün hər gün zastavadan icazə alınmalı idi.

Ulu Öndər Heydər Əliyev ötən əsrin 80-ci illərinin ortalarında Moskvada işləyərkən bilavasitə onun təşəbbüsü ilə Nüvədi ərazisindən keçməklə Bakı-Naxçıvan şosse yolu çəkilməyə başlanmışdı. Həmin yol Bakıdan Nüvədi zastavasına qədər (434 km), Naxçıvandan isə Meğri rayonunun Aldərə kəndinə qədər çəkilmişdi. Erməni şovinistləri Nüvədi-Astazur arasındakı təxminən 15 km-lik və Astazur-Aldərə arasındakı təxminən 5 km-lik asfalt yolun çəkilməsinə, bununla da Bakı-Naxçıvan birbaşa yolunun açılmasına imkan vermədilər. Moskvaya bildirdilər ki, Bakı-Mincivan-Qafan-Oxçu-Maralzəmi-Lehvaz-Mığrı-Naxçıvan marşrutu üzrə hazır yol var, Nüvədi-Aldərə yolunun çəkilməsi artıq xərcdir. Bununla onlar həm Bakı-Naxçıvan yolunu 140 km uzadır, həm də payız-qış aylarında dağ şəraitində gediş-gəlişi mümkünsüz edirdilər.

Nüvədi şəhər tipli müasir kənd idi. 1940-cı ildə inşa olunmuş Bakı-Culfa dəmir yolu buradan keçmiş, 1949-cu ildə kəndə elektrik işığı çəkilmişdi. Nüvədidə iki və üçmərtəbəli yaşayış evləri, müasir məktəb binası, xəstəxana, poçt, teleqraf, əmanət kassası, baytarlıq məntəqəsi, bir sözlə, lazım olan bütün sosial-mədəni xidmət sahələri var idi. Hər evdə televizor, telefon, maye qaz balonlarından istifadə olunurdu. Nüvədi qadınlarının toxudugu xalı və kilimlər, rəngbərəng geyimlər, xurcunlar, yun corablar və s. adamı valeh edirdi. Nüvədinin çirişini, caşırını, qoz və palıd ağaclarının koğuşunda arıların bağladığı balı, ovçuların ovladığı kəklikləri, dağ keçilərini, cüyürləri nüvədililər indi də xoş ovqatla xatırlayırlar.

Nüvədi öz gözəlliyi, təbii sərvətləri, dadlı meyvələri, şəffaf bulaqları, Baba Hacı, Sultan Səlim, Əbdül Ata kimi tarixi abidələri ilə ad çıxarmışdı. Ərazisinə görə Ermənistanda ən böyük kənd idi. Nüvədinin 19 min hektarlıq torpaq sahəsinin 16 min hektarı əkinə, bağçılığa yararlı idi. Kənd hər il dövlətə 1000 ton nar, 500 ton üzüm, 100 ton əncir, 16 ton yun, 90 ton ət, orta hesabla hər gün 2 ton süd verirdi (Əhmədəli Əliyev. "Nüvədi axıracan vuruşdu...", Respublika qəzeti, 12 fevral 1998-ci il). Meyvə plantasiyalarının salınmasında kənd rəhbərlərindən Aslan Məmmədovun, Yadulla Quliyevin, İnşallah Cəfərovun, Əhmədəli Əliyevin, Məhiş Abbasovun, Cəlal Əliyevin, Həzi Musayevin, Həsən Musayevin, Mayıl Əmənovun, Nadir Cəfərovun, Məmməd Rüstəmovun və başqalarının xidmətləri həmişə iftixarla yad olunur.

Ermənilər ilk dəfə 1918-ci ildə Zəngəzurun bir hissəsini, o cümlədən Mığrının azərbaycanlılar yaşayan kəndləri ilə birgə Nüvədini işğal edərək soydaşlarımızın bir qismini dəhşətli işgəncələrlə məhv etmişdilər. Həmin ilin payızında isə nüvədililər daşnakların hücumlarına davam gətirə bilməmiş, Araz çayını keçərək qonşu İran dövlətinin Misən kəndinə, eləcə də Ordubad və Zəngilan bölgələrinə pənah aparmışdılar.

O vaxt kəndin hörmətli adamlarından olan Mustafa uşaqları - Kərbəlayı Nəbi, Ələsgər, Cahangir qardaşları, Malik Əjdər, Kərbəlayı Ələkbər qardaşları, Kərbəlayı Əhmədəli oğlu İsmayıl, Durna oğlu Aslan, Hacı Musa oğlu İsrafil, Əsəd bəy oğlu Fərhad bəy, Xanlar bəy, Məşədi Həsənəli oğlu Məşədi Seyfulla, Kərbəlayı Hüseyn oğlu Qara Yunus, Əsəd oğlu Aslan, İsrafil oğlu Gödək Qara, Hacı Qulu oğlu Məşədi Zeynal, Məşədi Heydərqulu, Kərbəlayı Fərəc oğlu Abdulla, Məşədi Oruc oğlu Kərbəlayı İsmayıl, Rüstəm oğlu Gürşad, Kərbəlayı Əlı oğlu İldırım, Kərbəlayı Məhərrəm oğlu Abbas, Kərbəlayı Babat oğlu Oruc, Ağalar qardaşları və başqaları öz mal-qarasını satıb silah almış, kənddən çıxsalar da, düşməni rahat buraxmayıb ona qan uddurmuşdular. Bu qəhrəmanlar o vaxt Nüvədi camaatının torpağı əkib-becərməsi, məhsulunu Misənə və qaçqınlıq şəraitində yaşadığı digər yerlərə aparması üçün şərait yaradırmışlar.

**davamı növbəti sayımızda**



***İsmayıl Əliyev,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***

# "Standard and Poor's"un növbəti xəsisliyi...

## Bir müddət əvvəl Azərbaycanın kredit reytinqini sabit saxlayan agentlik indi də iqtisadi artım proqnozunu yüksəltməyə cürət etməyib

"Standard and Poor's" ("S&P") beynəlxalq kredit reytinq agentliyi Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərini açıqlayıb. Agentliyin hesabatında ölkəmizin 2024-2025-ci illər üçün iqtisadi artım perspektivləri digər beynəlxalq institutların proqnoz göstəricilərinə nisbətən xəsisliklə tərtib edilib və digər region ölkələrinin iqtisadi artım rəqəmlərindən aşağı müəyyənləşib. Belə ki, "S&P" analitiklərinin qənaətinə görə, Azərbaycanda iqtisadi artım tədricən zəifləyəcək ki, bunun da səbəbi neft hasilatının uzunmüddətli dövrdə azalması, neft ÜDM-nin dəyəryaratma gücünün aşağı düşməsidir. Proqnozlara görə, 2024-2025-ci illərdə real ÜDM artımı hər iki il üzrə təxminən 1,5 faiz səviyyəsində olacaq. Bu, digər iqtisadi institutların proqnoz hesabatlarından ən az, 2 dəfə aşağı göstərici deməkdir.

Məsələ ondadır ki, "Standard and Poor's"un yeni iqtisadi "uzaqgörənliyini" bir müddət əvvəlki hesabat sənədində Azərbaycanla bağlı əks etdirilmiş artım rəqəmləri təkzib edir və agentliyin 2024-cü ildə dərc etdiyi 2-3 hesabat bir-biri ilə ziddiyyət təşkil edir. Belə ki, "S&P" 2024-cü ilin fevral və iyun aylarında beynəlxalq iqtisadi auditoriyaya açıqladığı qlobal iqtisadi sənədlərdə Azərbaycanda ÜDM-in 2-3 faizdən yuxarı olacağını proqnozlaşdırmışdı. Sonuncu hesabatın dərcindən bir aydan bir qədər müddət keçdikdən sonra "S&P"-un Azərbaycanın real ÜDM-in artımı ilə bağlı proqnozunu 2,5 fazidən 1,5 faizə endirməsi təəccüb doğurmaya bilməz. Çünki bu müddət ərzində Azərbaycanda iqtisadi artım azalmayıb, əksinə yüksəlib, bu baxımdan ÜDM-in həm nominal, həm də real artımının baş verməsinə rəğmən, adıçəkilən reytinq qurumunun ölkəmizin iqtisadi göstəricilərini zəiflətmək təşviqatı obyektiv və ədalətli hesab oluna bilməz.

Burada bir haşiyə çıxaraq, "Standard and Poor's"un Azərbaycana qarşı kredit reytinq üzrə xəsisliyini də yaddan çıxarmaq olmaz. Belə ki, dünyanın nüfuzlu reytinq agentlikləri Azərbaycanın reytinq əmsalını "BB"dən "BBB" investisiya şkalasına qaldırdığı halda ötən ilin sonunda "S&P" ölkəmizin proqnoz göstəricisini "sabit"dən "müsbət"ə dəyişməklə, yeni "BB" səviyyəsində saxlamaqla kifayətlənib. Bununla bağlı Maliyyə Nazirliyi də açıqlama yayaraq agentliyin qərarını böyük təəccüblə qarşılamışdı.

**Azərbaycanda ÜDM-in azalması gözlənilir, yoxsa artımı?**

Əvvəla qeyd edək ki, Azərbaycanda iqtisadi artım tempi hazırda 4 faizdən çoxdur, 2024-cü ilin yanvar-iyun aylarında ölkədə 20,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ÜDM istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 6,9 faiz artıb.

Yeri gəlmişkən, hazırda Azərbaycanda ÜDM-in 4,2 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlığı və növbəti dövrlər üçün əlavə potensialların səfərbər olunmasına imkan verdiyini sübut edir.

Bu tempin ilin sonuna qədər davam edəcəyi və ələlxüsus da qeyri-neft ÜDM-nin orta artımının 7-8 faiz təşkil edəcəyi fonunda sabit artım dinamikasının 4-5 faiz nisbətində olacağı gözlənilir. Bunu dünyanın ən aparıcı maliyyə qurumlarının, o cümlədən Dünya Bankı (DB), Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı (AİB), eləcə də reytinq agentliklərindən "Fitch Group", "Moody's Ratings" Azərbaycanın yaxın 2-3 illik iqtisadi proqnozlarını 3-4 faiz civarında ehtimal edən hesabatlar dərc edib.

Qlobal iqtisadi proqnozlaşdırmada əsas istinad mərkəzi kimi qəbul edilən Dünya Bankının (DB) yenilənmiş hesabatında Azərbaycanın uzunmüddətli inkişafında yeni yaranan əlavə dəyər mənbələrinin, xüsusilə də qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafda töhfəverici rol oynayacağı proqnozlaşdırılır. Bankın iyunun 12-də dərc olunmuş "Qlobal İqtisadi Perspektivlər" adlı hesabatında Azərbaycanla bağlı proqnozları yeniləyib. Sənəddə qeyd edilir ki, 2024-2026-cı illərdə Azərbaycan iqtisadiyyatı ilə bağlı ümidverici proqnozlar qorunub saxlanılacaq, ümumi daxili məhsul (ÜDM) istehsalı cari ildə 2,4 faiz, 2025-ci və 2026-cı illərdə isə iqtisadi artımın 2,5 faiz artacağı proqnozlaşdırılır. DB-nin şərhinə əsasən, 2024-cü ildə qlobal geosiyasi proseslərin, Rusiya-Ukrayna müharibəsinin, eləcə də Yaxın Şərqdə davam edən gərginliyin fonunda beynəlxalq enerji bazarlarında enerji daşıyıcılarının qiymət sabitliyinin pozulması gözləniləndir, ancaq buna baxmayaraq neftin qiymətində kəskin enişlərin baş verəcəyi gözlənilmir, orta bazar qiymətinin 80 dollar olacağı ehtimal olunur. Bu isə neft ixrac edən ölkələrin iqtisadiyyatındakı maliyyə gəlirlərini və fiskal sabitliyi dayanıqlı şəkildə saxlayacaq.




**Nikbin proqnozlar**

Asiya Bankının da proqnozlarında Azərbaycan iqtisadiyyatı üçün neft-qaz gəlirləri əhəmiyyətli mənbə olsa da, son illərdə xüsusi artım nümayiş etdirən qeyri-neft sektorundakı mənbələr iqtisadi artımın neftə deyil, qeyri-neft sahələrinə əsaslandığını göstərir. Qeyd edilir ki, yaxın 3 illik artım tempi 2,5-3,4 çərçivəsində formalaşacaq. Xüsusilə də Avrozonada risklərin daha çox gözlənilən olduğuna diqqət çəkən agentlik Azərbaycanın sabit iqtisadi inkişafının qorunub saxlanılacağına dair nikbin proqnoz verib. Bankın yaxın dövr üzrə rəyinə əsasən, Azərbaycanın dayanıqlı maliyyə vəziyyəti gözlənilməz makroiqtisadi riskləri yumşaltmaqda davam edir.

"Fitch" beynəlxalq institutunun analitik şərhində Azərbaycanda 2025-ci il üçün iqtisadi artım proqnozu 2,8 faiz səviyyəsində müəyyən edilib. Beynəlxalq reytinq agentliyinin məlumatına əsasən, nominal ümumi daxili məhsulun (ÜDM) 2024-cü ildə 98,7 milyard dollara, 2025-ci ildə 107,7 milyard dollara, 2026-cı ildə 117,6 milyard dollara, 2027-ci ildə isə 128 milyard dollara çatacağı qeyd olunur. Agentliyin proqnozlarına əsasən, Azərbaycan iqtisadiyyatında getdikcə azalmağa doğru istiqamətlənən neft-qaz gəlirlərinin ÜDM-dəki payını qeyri-neft gəlirləri kompensasiya edəcək. Yeri gəlmişkən, bir neçə gün əvvəl "Fitch" iqtisadi komandasına daxil olan "Fitch Ratings" beynəlxalq kredit reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici valyutada reytinqinin bir pillə artırılaraq "BBB-" səviyyəsinə, yəni investisiya dərəcəli reytingə yüksəldilməsi barədə qərar qəbul edib. Ölkəmizin suveren reytinqinin investisiya dərəcəsinə qaytarılması, reytinq üzrə proqnozun isə "Stabil" olaraq təyin edilməsi həyata keçirilən makroiqtisadi və monetar siyasət, institusional islahatlar, investisiya mühitinin yaxşılaşdırılması, dövlət borcunun, xüsusilə xarici dövlət borcunun aşağı səviyyəsi və digər ardıcıl və çoxşaxəli islahatların beynəlxalq miqyasda qiymətləndirilməsinin təzahürü hesab edilə bilər. "Fitch Reytings" "BBB-" investisiya bir daha təsdiq edir ki, neft hasilatının aşağı düşməsinə baxmayaraq, ölkəmizin suveren yığım və iqtisadi güc balansı olduqca qənaətbəxş səviyyədədir..

Onu da qeyd edək ki, Azərbaycan hökumətinin yaxın 3 illik sosial-iqtisadi inkişaf proqnozları ilə beynəlxalq iqtisadi təşkilatların artım gözləntiləri üst-üstə düşür. Hökumətin proqnozlarına əsasən, 2024-cü ildə ÜDM real ifadədə 2,4 faiz artaraq 118,4 milyard olacaq, 2025-ci ildə 2,9 faiz, 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 3,6 faiz təşkil edəcək. Qeyri-neft ÜDM-i isə 2024-cü ildə 4,6 faiz, 2025-ci ildə 2,7 faiz, 2026-cı ildə 4,9 faiz, 2027-ci ildə isə 5 faizə bərabər olacaq.




Göründüyü kimi, neft-qaz sektorunun ümumi iqtisadi artımda payı tədricən azalsa da, artımın əsas hərəkətverici dayağı qeyri-neft sektoru olacaq. Bunun üçün dövlətin qarşısında qeyri-neft sektorundan daxilolmaları artırmaq əsas çağırış kimi durur. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan 2030 : sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və digər konseptual dövlət sənədlərinin hazırlanaraq icra edilməsi məhz neftsiz iqtisadiyyat qurucuulğu əsasında milli inkişafın təmin edilməsinə yönəlib. Bu strateji hədəfin bir istiqaməti isə işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası sayəsində yeni əlavə dəyər mənbələrinin səfərbər olunmasıdır. Bu isə iqtisadiyyata reinteqrasiyanın təmin edilməsi fonunda ÜDM-in nominal dəyərini və real ifadədə artımını da təmin edəcək.

*E.CƏFƏRLİ*

## Yaxın və Orta Şərqdə vəziyyət gərgindir...

# Müharibə olacaq, ya olmayacaq?

Son bir neçə gündə Yaxın və Orta Şərqdə mümkün qarşıdurmanın başlanma anonsu bölgə dövlətləri ilə yanaşı, bütün dünyanın diqqətini bu regiona cəlb edib. Xüsusilə, bir sıra Qərb dövlətlərinin öz vətəndaşlarını qarşıdurma coğrafiyası kimi xarakterizə olunan regiondan çıxmağa çağırması, diplomatik trafikin intensivləşməsi, bütün tərəflərdən yalnız müharibə ritorikasının eşidilməsi vəziyyətin ciddi olmasından xəbər verir. Hətta xarici mətbuat ABŞ Dövlət katibi Antoni Blinkenin Yeddilik Qrupun (G7) xarici işlər nazirlərinə İran və "Hizbullah" hərəkatının yaxın 24 saat ərzində İsrailə hücum edə biləcəyini dediyini yazıb. Qeyd olunub ki, Blinken İran və "Hizbullah"a diplomatik təzyiq göstərməyə çalışmaq üçün və HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda öldürülməsindən cavab olacaq zərbənin gücünü minimuma endirmək məqsədilə G7 həmkarları ilə telefon danışığı aparıb. Danışıqlarda ABŞ dövlət katibi mümkün hücumun nəticələrinin yumşaldılmasının regionda genişmiqyaslı müharibənin qarşısını almaq üçün ən yaxşı yol olacağını vurğulayıb.

Mənbələr bildiriblər ki, Blinken İran və "Hizbullah"ın yəhudi dövlətini vuracağına əmindir, lakin bu addımın konkret olaraq nə olacağı bəlli deyil. O qeyd edib ki, Amerika Birləşmiş Ştatları bu hücumu məhdudlaşdırmağa, sonra isə İsrailin buna mümkün cavabını yumşaltmağa çalışır. Məlumatı verən mənbənin sözlərinə görə, amerikalı diplomat Yaxın Şərq münaqişəsinin kəskinləşməsinin Qəzza zolağında atəşkəs danışıqlarına təsirindən məyus olduğunu bildirib. Blinkenin Amerika administrasiyasının Haniyənin öldürülməsindən əvvəl tərəflərin razılığa gəlməyə həmişəkindən daha yaxın olduğunu hiss etdiyini dediyi vurğulanır.

## Müharibə nə "vəd" edir?

Beynəlxalq ekspertlər isə müharibənin başlanma ehtimalını ikinci plana keçirir - onların fikrincə, hazırkı vəziyyətdə həm İsrail, həm də İran müharibə həvəsində görünür. Səbəblər isə fərqlidir:

- Baş verən müharibə hər iki dövlətin yeni iqtisadi münasibətlər sistemindəki yerinin əldə edəcək: o baxımdan ki, bu müharibə regionda yeni maraqların təmsil olunması ehtimalını gücləndirir;

- İran HƏMAS liderinin öldürülməsinin Yaxın Şərqdə yeni müharibəyə başlanılması üçün "bəhanə" kimi seçildiyini anlayır. Qərbin, xüsusilə Avropa və ABŞ-ın İranı məhz əyyd edilən coğrafiyada döyüşə çəkmək planı barədə danışan siyasi analitiklər Tehranın bu oyuna getmə ehtimalını zəif dəyərləndirir;

- Bu gərginliklər Yaxın və Orta Şərq üçün yeni siyasi şəkillənmdirmə yarada bilər - bölgənin siyasi xəritəsi yeni ştrixlərlə zənginləşə bilər.

Ekspertlər avqust ayının ortasında Fələstin prezidenti Mahmud Abbasın Türkiyəyə mümkün səfərinin də müharibədən daha çox "əzələ nümayişi"nə hesablandığını bildirirlər. Abbasın bu səfəri İsrail-ABŞ tandeminin regionla bağlı addımlarda Ankara ilə hesablaşmalı olduğunu əyani surətdə qarşı tərəfə çatdırır. Siyasi parametrlərin müəyyənləşdirilməsi, "sərhədlərin" formalaşdırılması bu kimi gərginliklərdə daha aydın şəkildə təzahür edir ki, politoloqlar hazırkı durumu da bu aspektdən qiymətləndirirlər. Vurğulanır ki, bir sıra dövlətlər fəallaşması müharibədən daha çox siyasi opponentlərin müəyyənləşdirilməsi üçün şərait yaradır.




İllərdir ki, Qəzza zolağında, Livan və ya Suriya ərazisində, bir sözlə, Yaxın Şərqdə gedən mübarizədə təhlükəli məqamlar nəzərə çarpıb - İsrail və HƏMAS arasında müharibə regional münaqişə sərhəddindən daha fərqli status daşıyıb. 2024-cü ilin aprelində İran tarixdə ilk dəfə İsrailə birbaşa zərbələr endirdi - iyulun 30-da isə Tehranda raket hücumu nəticəsində HƏMAS Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə öldürüldü. Münaqişənin daha çox diplomatik üstünlük qazanmağa hesablandığını düşünənlərlə yanaşı, müharibə variantını da istisna etməyənlər var - ən əsas sual isə ondan ibarətdir ki, Yaxın Şərqdəki hadisələr bu nöqteyə necə çatdı? Xronoloji ardıcıllığa nəzər yetirək:

- 2023-cü il oktyabrın 7-dən, HƏMAS Qəzza zolağından İsrailə hücum etdikdən sonra Hizbullah İsrail ərazisinə 2500-dən çox zərbə endirdi - mindən çox raket, 400-dən çox hücum dronu, 900-dən çox tank əleyhinə sursatlarla bu hücum reallaşdı. Rusiya mətbuatının yaydığı məlumata görə, İsrail baş nazirinin ofisinin hesabatında göstərilir ki, oktyabrın 8-dən Hizbullah İsrail ərazisinə 6800-ə yaxın raket atıb. İsrail Müdafiə Qüvvələri hücumlarda 25 mülki vətəndaşın və 22 İDF əsgərinin həlak olduğunu bildirib. 116-sı mülki vətəndaş olmaqla 250 nəfər yaralanıb.

- İyulun 27-də axşam saatlarında Hizbullah İsrail ərazisini növbəti kütləvi atəşə tutmağa başlayıb. Bu dəfə Livan ərazisindən Colan Təpələri və Yuxarı Qalileyə 40-dan çox raket atılıb. Onlardan biri, İran istehsalı olan "Fələk-1" raketi yerli yeniyetmə futbol komandalarının oyununun vaxtına təsadüf etdi - hərbi ekspertlərin sözlərinə görə, bu tip raketlərin Livandan uçuş müddəti təxminən 15 saniyədir. Sığınacaq məkanı futbol meydançasının bir neçə metrliyində yerləşsə də,

## Ardıcıllıq...

partlayış anında kimsə oraya özünü yetirə bilmədi. Nəticədə 10-16 yaş arası 12 uşaq dünyasını dəyişdi.

- İsrail üç gün sonra cavab verdi - iyulun 30-da axşam saatlarında Beyrutun cənub ətrafı Dahiya qəsəbəsində altı mərtəbəli bina partlayaraq uçub. Livan Səhiyyə Nazirliyinin məlumatına görə, ümumilikdə 7 nəfər ölüb. İsrail Müdafiə Nazirliyi bildirib ki, hava hücumu nəticəsində Hizbullahın ən yüksək səviyyəli hərbi komandiri və qrupun strateji komandanlığının rəhbəri Fuad Şükr həlak olub. İsrail ordusunun məlumatına görə, Şükr təşkilatın baş katibi Həsən Nəsrullahın hərbi planlaşdırma və idarəetmə üzrə sağ əli və müşaviri olub.

- Nəhayət, iyulun 31-də gecə Tehranın şimal hissəsində İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) iqamətgahında partlayış baş verdi və nəticədə yeni seçilmiş prezident Pezeşkaianın andiçmə mərasiminə gəlmiş HƏMAS-ın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyə həlak oldu. Məsələ ilə bağlı İsrail tərəfi açıq kontekstli münasibət bildirməsə də, davranışlardan məsuliyyəti hamının daşıdığı bəlli olub.

Beləliklə, İran-İsrail və ya Livan-İsrail, nəhayət hətta Suriya-İsrail müharibəsi planlaşdırmaları ilə bağlı "müzakirələr" gedir - bu müzakirələrin hansının dəqiqlik yükü nə qədərdir, bunu hələ ki, müəyyənləşdirmək mümkün deyil.

## 6 ay öncə edilmiş xəbərdarlıq ...

Yaxın Şərqdə son illərin "kəskin düşmənləri" sayılan İsrail ilə İran həmişə düşmən olmayıblar - İran İsrailin müstəqilliyini hələ 1950-ci ildə tanıyıb. Hətta Tehran müsəlman dünyasında bu tanınmanı ratifikasiya edən ilklərdən biri idi. İranda şahlıq rejimi dövründə Tehran ilə Təl-Əviv Yaxın Şərqdə ən yaxın müttəfiqlərdən sayılırdılar, biznes və hərbi əməkdaşlığı inkişaf etdirirdilər. Belə ki, İran İsrailin əsas neft tədarükçüsü olub, İsrail isə İran ordusuna təlim keçib, İrana silah satırdı. Şimaldan cənuba bütün İsraili keçən Eylat-Aşkelon neft kəməri hələ də ortaq İran-İsrail şirkətinə məxsusdur (lakin İran qazancdan öz payını almır - İsrail bu pulu 2009-cu ildə xüsusi hesabda dondurur).

İslam inqilabına qədər İranda böyük bir yəhudi icması yaşayırdı. 1979-cu ildə baş verən hadisələr məsələni kökündən dəyişdi - İran ilə İsrail arasındakı münasibətlər kəskin hal almağa başladı. Yəni, İran intensiv də olmasa demək olar ki, 1979-cu ildən İsrail ilə müharibə vəziyyətindədir - müharibə birbaşa aparılmır, hibrid üsullara əsaslanır.

İranın yeni hərbi doktrinasında təhdidlərə qarşı mübarizə və Yaxın Şərqdəki maraqlarını proksi qrupların köməyi ilə təşviq etməyə əsaslanma yer almaqdadır. Bu məqsədlə SEPAH-ın "Əl-Qüds birliyi yaradılıb.

Şərqşünas, ərəbşünas və Bar-İlan Universitetinin professoru Mordechai Keydar hələ 2023-cü ilin aprelində, yəni HƏMAS-ın hücumundan altı ay əvvəl dərc etdirdiyi məqaləsində İran ilə İsrail arasında böyük müharibə xəbərdarlığı etmişdi - İraqdakı mənbələrindən alınan məlumatlara əsaslanaraq Keydar yazırdı ki, İsrailə hücum eyni vaxtda yeddi cəbhədən - Livan, Suriya, İraq, Yəmən, Qəzza zolağında, eləcə də İordan çayının qərb sahilindən və İsrailin özündə hazırlanır. Həmin bölgələrdə yaşayan ərəblər daxili arenada vəziyyəti gərginləşdirməli idilər.

## Yeni müharibə haradan başlayacaq?

İsrailli hərbi analitik Yiqal Levin hesab edir ki, İran və onun etibarlı qüvvələrinin cavabı yeni silahlardan istifadə etməklə hücum ola bilər. "Məsələn, dənizdən Təl-Əvivə dronlar atıla bilər. Onlar həmçinin gəmiləri batırmağa və ya lazımsız eskalasiyanın qarşısını almaq üçün əvvəllər vurmaq istəmədikləri strateji əhəmiyyətli obyektləri vurmağa cəhd edə bilərlər", - deyə Levin misallar gətirib.

Onun fikrincə, hazırda regional müharibə ehtimalı var. "Nə Tehranın, nə də Qüdsün görmədiyi və ya görmək istəmədiyi hadisələr baş verə bilər", - Levin iddia edib - "Beləliklə, İkinci Livan müharibəsi plana uyğun olaraq deyil, hadisələr zənciri ilə başlamış olur".

## 30 il sonra üstü açıldı...

Baş verənlərlə bağlı xarici mətbuat bir məsələni də xatırladıb - Hizbullahın İsrailə qarşı ən böyük hücumlarından birinə diqqət çəkib. 1992-ci il martın 17-də İsrailin Buenos-Ayresdəki səfirliyində baş verən partlayışda 29 nəfər həlak oldu, 242 nəfər yaralandı. 1994-cü il iyulun 18-də isə Buenos-Ayresdəki yəhudi icmasının binasında baş verən partlayış nəticəsində 86 nəfər həlak oldu. İkinci terror aktından 30 il sonra, 2024-cü il aprelin 12-də Argentina məhkəməsi hər iki partlayışın Livan Hizbullahı tərəfindən törədildiyini bildirib.

*S.İSMAYILZADƏ*

# Autizmli uşaqların sayı artır...

## Xəstəliyin yeni potensial səbəbi aşkar edilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır**

Günümüzdə autizm xəstəliyindən əziyyət çəkən uşaqların sayının artdığını müşahidə etməkdəyik. Bəzən bir çox valideyn övladının üç yaşında danışmağa başlamamasını, heç kəslə ünsiyyət qurmamasını uşağın şəxsiyyətinə xas bir xasiyyət kimi qəbul edir. Buna görə həkimlərdən autizm diaqnozu eşidəndə uzun müddət buna inanmaq istəmirlər. Autizmli bir uşaq isə ona bənzəməyən insanların arasında narahatlıq hiss edir, çünki onları başa düşə bilmir.

**Autizm nədir?**

Qeyd edək ki, autizm 3 yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran, beynin inkişafına mane olan xəstəlikdir. Mütəxəssislər qeyd edir ki, autizm irsi mənşəlidir, ancaq irsiliyi olduqca qarışıqdır və mənşəyinin çoxlu gen qarşılıqlı təsirlərindən və yaxud nadir görülən mutasiyalardan qaynaqlandığı dəqiq məlum deyil. Bəziləri xəstəliyin yaranmasına peyvəndlərin səbəb olduğunu deyir. Lakin bu iddia hələlik mübahisəli olaraq qalır.

Autizm beyinin bir çox qisminə təsir edir, amma bu təsirin necə inkişaf etdiyi məlum deyil. Valideynlər uşaqlarının təxminən iki yaşında xəstəliyinin əlamətlərini hiss edirlər. Təəssüf ki, autizmin çarəsi yoxdur.

**Xəstəliyin səbəbi bilinmir...**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan pediatr Vaqif Qarayev autizmin son vaxtlar dünyanın, eləcə də Azərbaycanın problemi olduğunu vurğulayıb: "Problemi qəlizləşdirən də odur ki, bu sindromun səbəbi bilinmir. Doğrudur, bu vaxta qədər autizmin səbəbləri barədə müxtəlif iddialar irəli sürülüb. Lakin sübutlu təbabətdə onun səbəbi barədə hələlik heç nə yazılmır. Bir müddət bundan əvvəl peyvəndlərin autizm yaratdığı barədə məlumatlar yayılırdı. Bəzi xəbər saytlarının yazdığına, gəldiyi əsassız qənaətə görə, Azərbaycanda uşaqlara vurulan peyvəndlər keyfiyyətsiz, yararsızdır. Gəlin baxaq, axı Avropada peyvəndlə bağlı problem yoxdur. Və yaxud peyvənd autizm yaradırsa, bəs peyvənd almayan uşaqlarda autizmin səbəbi nədir? Yəni bu iddia özünü doğrultmayıb".

Həkim qeyd edib ki, peyvəndin autizm yaratdığı barədə məlumatlar yayıldığı andan peyvənd əleyhinə böyük bir kampaniya başladılıb və bu hələ də davam edir: "Avropanın ən qabaqcıl ölkələrində, o cümlədən ABŞ-ın bir çox ştatlarında qızılca epidemiyası geniş yayılmaqdadır. Səbəb isə insanların peyvənddən imtina etməsidir. Xatırladım ki, bir neçə il bundan öncə İngiltərədə peyvəndlə bağlı qalmaqallı məhkəmə prosesi keçirildi. Sonda peyvəndin autizm yaratdığı sübut edilmədi. Bu baxımdan autizm sindromunun peyvəndlə əlaqələndirilməsi tamamilə əsassızdır. Son vaxtlarda isə genetik faktor irəli sürülür. Lakin bu da məntiqə uyğun gəlmir. Sual olunur: necə oldu yalnız son 20-30 ildə insanların genetik kodu dəyişdi? Yəni bir sözlə, autizmin dəqiq səbəbi hələlik bilinmir".

Pediatr xəstəliyin dərmanla müalicə olunmadığını bildirib: "Bu cür uşaqlarla bağlı sırf reabilitasiya yaradılmalı, əsasən də psixoloqlar onlarla məşğul olmalıdır. Autizmin əlamətlərinə gəldikdə, belə uşaqlar adətən təkliyə meylli olur, ailə üzvləri, eləcə də kollektivlə kontakta girmir, monoton hərəkət edir, nitqində eyni sözlər olur, tutaq ki, hər suala yalnız öz adlarını deməklə cavab verirlər və s. Beləliklə, burada həm nitq, həm də psixoloji problemlər ortaya çıxır. Lakin uşaqda qeyd etdiklərimin hamısı varsa belə, hələ autizm demək doğru deyil. Çünki müxtəlif sindromlar var. Bəzən görürük ki, bu cür davranışları olan uşaqlar bir neçə ay psixoloji reabilitasiya keçdikdən sonra həmin əlamətlər aradan qalxır".

**Yeni araşdırma...**

Bu günlərdə alimlər autizmin yeni potensial səbəbini aşkar ediblər. Yaponiyanın Fukui Universitetinin alimləri yeni doğulmuş körpələrin göbək qanında yağ turşularının səviyyəsi ilə autizm spektri pozğunluğunun inkişaf riski arasında əlaqə tapıblar.

Tədqiqat yeni doğulmuş körpələrin 200 göbək qanının analizi əsasında aparılıb. Məlum olub ki, diHETrE (araxidon turşusundan əldə edilən diol) birləşməsinin həm artan, həm də azalan konsentrasiyası autizmin yaranmasına əhəmiyyətli təsir göstərə bilər. Alimlər qeyd ediblər ki, qanda yüksəksəviyyəli diHETrE altı yaşında ünsiyyət çətinlikləri ilə, aşağı səviyyələr isə oxşar yaşda olan uşaqlarda təkrarlanan və məhdudlaşdırıcı davranışlarla əlaqələndirilir.

Tədqiqatçılar diHETrE səviyyələrinin qiymətləndirilməsinin uşağın autizmin inkişaf ehtimalını proqnozlaşdırmaq üçün faydalı bir vasitə ola biləcəyini təklif edirlər. Autizm və ya autizm spektri pozğunluğu (ASD) insanın davranışına, ünsiyyətinə və sosial qarşılıqlı əlaqəsinə təsir edən sinir-inkişaf pozğunluqlarının kompleks toplusudur. Simptomlar müxtəlif insanlarda xeyli dərəcədə dəyişə bilər, lakin çox vaxt sosial qarşılıqlı əlaqədə çətinlik, təkrarlanan davranış və məhdud maraqları ehtiva edir.

*Yeganə BAYRAMOVA*

# ABŞ-da seçki marafonu...

## Harris şanslarını artırır, Tramp maddi yüksəliş vədi verir

ABŞ-da noyabrın 5-də baş tutacaq yubiley saylı, 60-cı prezident seçkiləri öncəsi namizədlər arasında planlaşdırılan debatla bağlı əməlli-başlı problem yaşanır. Məsələ orasındadır ki, hazırkı prezident Co Baydenin qarşıdan gələn seçkilərdə namizəd olmayacağını bəyan etməmişdən öncə Respublikaçılar partiyasının seçkilərdəki namizədi Donald Tramp ilə sentyabrın 10-da debatı planlaşdırılmışdı. Tramp "ABC News"un keçirəcəyi bu debata əvvəlcə razılıq versə də, Bayden seçki yarışından çəkildikdən sonra həmin debata qatılmaqdan imtina edib. Əvəzində isə sentyabrın 4-də "FOX News"da görüşmək təklifini irəli sürüb. Kamala Harris isə əvəzində Tramp gəlməsə də, sentyabrın 10-da "ABC News"un təşkil edəcəyi debata qatılacağını bildirib.

Respubilkaçıların namizədi, eks-prezident Donald Tramp bildirib ki, əgər vitse-prezident Kamala Harrislə debat gələn ay "FOX News"da olmayacaqsa, o, ümumiyyətlə debatlarda iştirak etməyək. Donald Tramp sosial mediadakı hesabında yazıb ki, "mən onunla sentyabrın 4-ü görüşəcəyəm, ya da bu görüş olmayacaq".

### Debat olacaqmı?

Hazırkı vitse-prezident, seçkilərdə Demokratların təmsilçisi olacaq Kamala Harrisin seçki qərargahı isə Trampın "Fox News"un moderatorluğu ilə debat təklifi ilə razılaşmadığını bəyan edib. "European Pravda" xəbər verir ki, şənbə günü səhər Harrisin seçki kampaniyasının kommunikasiya direktoru Tayler 10 sentyabr üçün planlaşdırılan debatı nəzərdə tutaraq "Donald Tramp qorxaraq qaçır" deyib. "O, oyun oynamağı dayandırmalı və artıq sentyabrın 10-da razılaşdığı debata çıxmalıdır" - deyə Tayler bildirib. O, əlavə edib ki, vitse-prezident Harris hər bir halda həmin gün, həmin saat milli auditoriya ilə birbaşa ünsiyyət qurmaq fürsətindən istifadə etmək üçün ABC News-da olacaq. Tayler bildirib ki, kampaniya dövründə gələcək debatların müzakirəsinə açıqdırlar - lakin bunun üçün hər iki tərəfin razlışdırdığı debat baş tutmalıdır.

Tramp isə bildirib ki, o, vitse-prezident Kamala Harrislə sentyabrın 4-də "Fox News"un moderatorluğu ilə keçirilən tədbirdə müzakirə aparmağa razılaşıb.

### Böyük ştatlarda şanslar bərabərləşir

Seçki günü yaxınlaşdıqca proses də gərgin hal almaqdadır. Son günlərə qədər reytinq siyahısında açıq fərqlə məğlub olan hazırkı vitse-prezident Harris artıq şansları bərabərləşdirib. Artıq Harris və keçmiş prezident Donald Tramp əsas ştatlarda bərabər sayda səsə malikdirlər. Bununla bağlı CBS News/YouGov sorğusunun nəticələri bəyan edilib. Hətta bəzi regionlarda Harrisin 1 xallıq üstünlük qazandığı da bildirilir. Halbuki prezident Bayden seçki marafonundan çəkilən dövrdə demokratların göstəricisi respublikaçılardan 5 xal geridə qalmışdı.

Aralarındakı seçki yarışında şanslar bərabər olsa da, Trampın sosial vədləri onu daha populyar edir. Tramp seçicilərinə maddi cəhətdən daha yaxşı layihələr vəd etməklə və sərhəddəki miqrant problemini həll sözü verməklə öz şansını artırır. Eyni zamanda, son sorğularda dəqiq seçim edəcəyik deyən seçicilərin də sayında artım müşahidə olunub. Xüsusilə, demokratlara yaxın qüvvələrin seçkinin nəticələrinə ümid bəsləməsi kampaniya başlanan dövrdən ilk dəfədir ki, bu qədər açıq şəkildə nəzərə çarpır. Keçirilən sorğulara görə, iyul ayı ilə müqayisədə daha çox qaradərili seçici səs verəcəyini bildirib. Harrisin seçiləcəyi təqdirdə onların maraqlarını müdafiə edəcəyinə inanan qadın seçicilərin də sayı artır. Maraqlıdır ki, amerikalı seçicilərin düşüncəsinə görə, Tramp daha çox qadınların deyil, kişilərin maraqlarını müdafiə edir.

Ştatlarla bağlı dəqiq rəqəmlərə gəldikdə isə, hər iki namizəd Miçiqanda 48 faiz, Pensilvaniyada 50 faiz, Arizonada isə 49 faiz səs toplayıb. Tramp Viskonsin (50-49), Corciya (50-47) və Şimali Karolina (50-47) ştatlarında cüzi üstünlük əldə edib. Harris isə Nevada ştatında Trampdan bir qədər üstün olub: 50-48.

"The Hill" yazır ki, Kamala Harris Donald Trampdan ümumilikdə 1,2 faiz geridədir, lakin o, bu kiçik fərqi kompensasiya edə biləcək. Hazırda Harrisin seçilmə şansı əvvəlkindən bir neçə faiz artaraq 50 faizə yaxınlaşıb.



### Vitse-prezidentin vitse-prezidenti

Daha bir maraqlı məqam isə Demokrat Partiyasının rəsmi namizədi və hazırkı vtse-prezident Kamala Harrisin özünə "xələf" seçməsidir. Belə ki, seçiləcəyi təqdirdə kimi vitse-prezident kimi görmək istəməsi ilə bağlı hələlik tam rəy yoxdur. Amma bununla belə namizəd adlar ortaya çıxıb. Media əsasən Pensilvaniya qubernatoru Coş Şapironun şansını yüksək dəyərləndirsə də, namizədlər arasında Kentukkinin qubernatoru Endi Beşir, Arizonanın senatoru Mark Kelli, nəqliyyat naziri Pit Buttidjiç, İllinoysun qubernatoru Cey Pritsker və Minnesota ştatının qubernatoru Tim Vals da var. CNN-in versiyasına görə, bu yarışda ən çox ehtimal şansı olan namizəd məhz sonuncu - Tim Valsdır.

### Tramp vəzifəsini tərk edəcək...

Respublikaçı namizəd Donald Tramp isə maraqlı bir açıqlama verib. O bildirib ki, səhhətində problem yaranarsa, prezidentlik postunu tərk edəcək. ABŞ prezidentliyinə namizəd Trampa Çikaqoda qaradərili jurnalistlərin illik qurultayında "koqnitiv qabiliyyətləri pisləşərsə, istefa verəcəkmi?" sualını cavablandırarkən deyib ki, vəzifəsinin öhdəsindən gələ bilməyəcəyini anladığı an postunu tərk edəcək. Siyasətçi hər bir prezidentliyə namizədin peşəkar qabiliyyət imtahanından keçməsini əla ideya adlandırıb və belə bir imtahandan keçməyə hazır olduğunu bildirib.

Xatırladaq ki, insanın koqnitiv xassələrinə "diqqətlilik", "yadınasalma", "öyrənmə", "yaradıclıq", "təşkiletmə", "oriyentasiya", "əsaslandırma", "iradə", "inam" və s. kimi keyfiyyətlər aid edilir.

***SADİQ***

# Ukraynanın "F-16" məyusluğu...

## Kiyev söz verilən təyyarələrin hamısını ala bilmədi

Ukrayna Prezidenti Volodimir Zelenski tərəfdaş ölkələrin "F-16" qırıcılarını Ukrayna ordusuna təhvil verdiyini təsdiqləyib. Zelenski bildirib ki, təyyarələrin qəbulu rəmzi 4 avqust - Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri Günündə rəsmiləşib. Müharibənin ilk günlərindən Ukrayna Rusiyanın hava hücumlarına müqavimət göstərir deyən Ukraynanın dövlət başçısı "F-16"larla bağlı Kiyevin müraciətini qəbul edən ölkələrə təşəkkür edib.

Amma bu "yardım" daha çox Ukraynanın müttəfiqləri tərəfindən başdan edilməsi kimi xarakterizə olunur. Belə ki, xüsusilə Avropa mətbuatı bu məsələnin mahiyyətində Ukraynaya yardımdan çox Zelenskini gələcəklə bağlı xəbərdarlıqların dayandığını iddia edib. Başqa sözlə, bu qırıcıların verilməsi əslində Ukraynanın sülh prosesinə qoşulma zərurətini növbəti dəfə "başa salıb".

### 79 söz verilmişdi... cəmisi 10-u verildi

Söhbət ondan gedir ki, Ukrayna Silahlı Qüvvələri vəd edilən 79 ədəd F-16 qırıcısından yalnız 10-nu alıb. Bu barədə "The Economist" qəzeti məlumat yayıb. "İlk 10 döyüş təyyarəsi Ukraynaya iyulun son günündə, ABŞ Prezidenti Co Baydenin qətiyyətsiz administrasiyası nəhayət, daha qeyrətli avropalı müttəfiqlərinə onları göndərmək üçün yaşıl işıq yandırdıqdan bir il sonra gəldi", -nəşr yazıb.

Nəşrin müəllifi iddia edir ki, Kiyevə təhvil verilən 10 ədəd F-16 Rusiya Hərbi Hava Qüvvələrini məğlub etmək üçün çox azdır, lakin "güclü simvolik başlanğıcdır". Qeyd olunur ki, bu ilin sonuna qədər Ukrayna Silahlı Qüvvələri bu tipli 20 təyyarəyə malik olmalıdır, qalan F-16-lar isə Danimarka və Niderlandın dəstəyi ilə 2025-ci ildə partiyalar şəklində gələcək.

"The Economist"in siyasi şərhçiləri nikbin əhval-ruhiyyə aşılamağa çalışsalar da, vəziyyətin ürəkaçan olmadığı ortadadır. Bu ilin noyabrında ABŞ-da keçiriləcək seçkilərin nəticələrinə indidən ümid bəsləyə bilməyən Avropa bu və ya digər şəkildə özünü kompensasiya etməyə çalışır. Hətta Almaniyanın timsalında bir neçə dövlət açıq şəkildə öz hava məkanından Rusiyaya zərbə endirilməsinə icazə vermədiyini belə bəyan edib. Bu isə Ukraynanın vahid və monolit anti-Rusiya koalisiyası toplamaq xəyalını puç edir. Eyni zamanda, Avropanın Ukrayna müharibəsinə münasibətdə əvvəlki marağı nümayiş etdirməməsi, Rusiyaya qarşı münasibətdə daha loyal mövqeyə transfer olunması Kiyevi düşüncəyə qərq edir...



### Avropalı "müttəfiqlər" geri çəkilir...

Vurğulandığı kimi, Ukrayna prosesin əks istiqamət aldığını görür. Məsələn, prezident Zelenskinin verdiyi son açıqlama bunun bariz nümunəsidir - Ukrayna prezidenti qonşu ölkələrin Moskvanın mümkün reaksiyasına görə Rusiya raketlərini vurmaqdan çəkindiklərini bildirib. Volodimir Zelenskinin sözlərinə görə, tərəfdaşlar eskalasiyadan çəkinsələr də, Kiyev bu mövzunu gündəmə gətirmək niyyətindədir. Dövlət başçısı, həmçinin bu məsələdə koalisiyaya ehtiyac yarandığını və bunun hər bir dövlət üçün çox böyük məsuliyyət olduğunu vurğulayıb. Zelenski, eyni zamanda, qonşu dövlətlərlə Ukrayna üzərində Rusiya raketlərini vurmaq imkanını müzakirə edəcəyini deyib. Buna baxmayaraq, Şimali Atlantika Alyansının aparıcı ölkələrinin (ABŞ, Almaniya və Böyük Britaniya) liderləri, eləcə də hərbi blokun baş katibi NATO-nun müharibədə tərəf olmamaq üçün Rusiya raketlərini vurmayacaqlarını bəyan ediblər. Qeyd edək ki, rəsmi Kreml Ukraynaya silah tədarükünün nizamlanmaya mane olduğunu və NATO ölkələrini birbaşa münaqişəyə cəlb etdiyini düşünür. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə öz növbəsində hesab edir ki, Ukrayna üçün silah olan istənilən yük Moskva üçün qanuni hədəfdir.

### Yardımın təyinatı dəyişir...

Beləliklə, mənzərə tam aydın olur - hazırkı məqamda Qərbin gözü Ukraynadan daha çox cənuba, Yaxın və Orta Şərqə dikilir. Son günlərdə regionda baş verənlər müharibə təhlükəsi anonsları, eyni zamanda yeni İran-İsrail müharibəsi riski Qərbi Ukrayna ilə bağlı planlarında köklü dəyişikliyə məcbur edir. Seçim qarşısında qalacağı təqdirdə Qərbin İsraillə müqayisədə Ukraynaya üstünlük verəcəyini gözləmək mümkünsüzdür. Bununla bağlı ABŞ mətbuatı da yazır. Bildirilir ki, Pentaqon son günlərdə diqqətini daha çox Yaxın Şərqə yönəldib və orada baş verənləri müşahidə etməkdədir. Yəqin ki, Ukraynaya ayrılan maddi yardımların azalmasının da əsl səbəblərindən biri budur. Belə ki, Ukrayna Dünya Bankı vasitəsilə ABŞ-dan 3,9 milyard ABŞ dolları məbləğində qrant alıb. Bu barədə Ukrayna Baş naziri Denis Şmıqal sosial şəbəkəsindəki hesabında yazıb. "Bu vəsait müəllimlərin, həkimlərin və xilasedicilərin maaşları, sosial müavinətlər kimi prioritet büdcə xərclərinin maliyyələşdirilməsinə kömək edəcək", - o qeyd edib.

Şmıqalın sözlərinə görə, bu, 2024-cü ildə ABŞ-ın birbaşa büdcə dəstəyinin ilk tranşıdır. Ümumilikdə Ukrayna bu il ABŞ-dan 7,8 milyard ABŞ dolları büdcə yardımı alacaq. D. Şmıqal bildirib ki, bu, Ukraynaya cari maliyyə dövrünü inamla keçməyə imkan verəcək.

### Məcburi sülh mesajı...

Beləliklə, Ukraynaya kömək məsələsində daha çox humanitar yardımların önə çəkilməsi deyilənləri bir daha təsdiqləyir. Zelenskinin də son günlərdə sülhlə bağlı mesajlar verməsinin buradan qaynaqlandığını demək olar. Ümumi gedişatın onun əleyhinə yönəldiyini və həlledici anda meydanda tək qalmaq ehtimalını göz önünə alan Kiyev sülh anonsu səsləndirir - bir neçə gün öncə Ukrayna Prezidenti Volodimir Zelenski Yaponiyanın NHK telekanalına müsahibəsində söyləyib ki, noyabrın sonuna qədər rəsmi Kiyev sülhə nail olmaq üçün fəaliyyət planı hazırlayacaq. Onun sözlərinə görə, Kiyev ərazi bütövlüyü məsələlərində müvafiq ölkələrlə ətraflı müzakirələrə başlayacaq. "Rusiyanın Ukrayna ərazilərini işğal altında saxladığı bir vaxtda atəşkəs çağırışlarına cavab verə bilməyəcəyik", - deyə Zelenski vurğulayıb.

Beləliklə, F-16 qırıcılarının vəd edilən saydan 7 dəfədən artıq az verilməsi, maliyyə yardımlarının təyinatının dəyişməsi Kiyevin aqressiv davranışlarını "yumşaldıb". Göründüyü kimi, artıq "sülh, yoxsa müharibə" tezisi üzrə aqressiyasını bir kənara qoyan Ukrayna prosesləri dəqiq qiymətləndirməyə başlayıb.

***SADİQ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# “Tək inci”...





## Xan qızının doğum günüdür

*Yeganə BAYRAMOVA*

Sonuncu Qarabağ xanı Mehdiqulu xanın yeganə övladı olduğu üçün onu “Dürrü yekta”, yəni “Tək inci”, el arasında isə “Xan qızı” çağırarmışlar. Natəvan istedadlı şairə olmaqla yanaşı, xeyriyyəçiliyi ilə də tanınıb, imkansızlara əl tutub, Şuşaya su kəməri çəkdirib. Bu gün Xan qızının anadan olmasından 192 il ötür.

Xurşidbanu Natəvanla bağlı maraqlı faktlar çoxdur. Tarixçilərin ehtimalına görə, o dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmişdi və Xurşidbanu Xasay xan Usmiyevlə izdivaca məcbur edilmişdi. Belə bir ehtimal da var ki, Vorontsovun şəxsi yavəri Xasay bəy Tiflisdə onlara mülk iddialarında kömək göstərib və bunun müqabilində Xurşidbanuya evlənməyi təklif edib.

Xasay xanla evləndikdən sonra Natəvan dörd il övlad arzusu ilə alışıb-yanıb. Hər gün Allaha dua edən Xan qızı 1854-cü ildə əri ilə Bakıya gəlib, Şıx kəndindəki Bibiheybət məscidini ziyarət edirlər. Bu ziyarətdən bir il sonra 1855-ci ildə onların oğlu Mehdiqulu xan, 1856-cı ildə qızı Xanbikə dünyaya gəlir.

Anasının vəfatından sonra ailəsinin təkidi ilə Xasay Usmiyev vətəni Dağıstana döndüyü zaman həyat yoldaşı Xurşidbanunu da özü ilə aparmaq istəyib. Lakin Xan qızı Dağıstanda həmişəlik yaşamağı qəbul etməyib və onlar 1864-cü ildə ayrılıblar.

Natəvan 1869-cu ildə könlünə yatan Seyid Hüseyn adlı kasıb bir şuşalıya ərə gedir. Bəziləri Seyid Hüseynin Natəvanın nökəri, faytonçusu olduğunu da iddia ediblər. Dəqiq faktlar göstərir ki, Seyid Hüseyn sənətkar olub. Papaqçı idi. Bu evlilikdən də Natəvan xanımın üç oğlu dünyaya gəlib.

Onun Seyid Hüseynə ərə getməsi bəy və mülkədarları qəzəbləndirmişdi. Onlar Natəvanın ailə üzvləri arasına nifaq salır. Oğlu Mehdiqulu xan baş götürüb evdən gedir. Beləliklə şairə ömru boyu qınaq və töhmətlərdən yaxa qurtara bilməyib.

Seyid Hüseyndən olma oğlu Mir Abbas 17 yaşında vəfat edib. Onun ölümü Xan qızına ağır təsir etdiyindən uzun müddət Xan qızı bu ağır dərddən özünə gələ bilməyib. Oğlunun ölümündən sonra kədərli şeirlər yazmağa başlayır və özünə Natəvan, yəni zəif, gücsüz təxəllüsünü götürür.

Şəxsi münasibətlərin, dövranın haqsızlığı, zalımların sitəmi şairəni vaxtsız qocaldır, onu həyat işığına həsrət qoyur. Xəstəlik və məhrumiyyətlər, xüsusilə birinci ərindən olan övladları ilə ikinci ərindən olan uşaqları arasında torpaq-mülk ixtilafları Natəvanın onsuz da çətin olan vəziyyətini daha da ağırlaşdırır. Elə bu illərdə onun evindən xeyirxah məqsədlər üçün ayrılmış bir sandıq qızıl pul və qiymətli əşyalar oğurlanır. Bu hadisə Natəvanın Arazdan Mil düzünə çəkdirməyə başladığı arxın Kəngərli məntəqəsində yarımçıq qalmasına səbəb olur.

Şairənin həyatının son illəri daha acınacaqlı keçib. O, yaylaqlarını və yararlı torpaqlarını itirərək var-yoxdan çıxır, borca düşür. Hətta dövrü mətbuatda çıxan xəbərlərə görə o, ağır maddi çətinliklər üzündən, ev əşyalarını, zinət əşyalarını açıq satışa qoymuşdu. (Bakinskie quberrnckie vedomosti” qəzeti, ׳ 43; Yenə orada, 1896, ׳ 5.)

Bütün bu çətinliklər, maddi və mənəvi sıxıntılar nəticəsində Natəvanın xəstəliyi və daxili iztirabları getdikcə şiddətlənir və o, 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat edir. Dəfn mərasimində iştirak edən camaat, hörmət əlaməti olaraq, şairənin cənazəsini Şuşadan Ağdama qədər piyada aparıb. Xan qızı Ağdamda “İmarət” deyilən ailə qəbiristanlığında dəfn olunub.

Xurşidbanu Natəvanın şəxsiyyətinə, irsinə, yaradıcılığına Azərbaycan dövləti hər zaman sayğı bəsləyib. Natəvanın 180 illik yubileyi də dövlət səviyyəsində qeyd edilmişdi. 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdı. 2016-cı il fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinin açılış mərasimi keçirilib.

Bakıda Xan qızının adına kitabxana, Azərbaycan Yazıçılar Birliyində ədəbi klub fəaliyyət göstərir. Şuşa işğaldan azad edilərkən Natəvanın büstü yenidən doğma şəhərinə qaytarıldı, Xan qızı bulağı bərpa edildi. Prezident İlham Əliyev 14 mart 2022-ci il tarixində “Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında” sərəncam imzalayıb.



## Azercell-in “Kitab Klubu” Gəncədə!

### *Lider mobil operator uşaq evlərinin sakinlərində mütaliə vərdişləri formalaşdırır*

“Azercell Telekom” MMC “Kitab Klubu” layihəsi çərçivəsində bölgələrdə yerləşən uşaq evlərinin sakinlərini ziyarət edir. Növbəti maarifləndirici tədbir Sosial Xidmətlər Agentliyinin Gəncə şəhərindəki 4 saylı uşaq evi sosial xidmət müəssisəsində tərbiyə alan uşaqlar üçün keçirilib. Görüş çərçivəsində balacalarda mütaliə mədəniyyətinin formalaşdırılması, nitq qabiliyyətinin inkişafı, ümumilikdə təhsilə həvəsin artırılmasına töhfə verən xüsusi proqram təşkil olunub.

Mütaliə saatında azyaşlılar Azərbaycan uşaq ədəbiyyatının parlaq nümunələri ilə tanış olub, maraqlı müzakirələrdə iştirak ediblər. Sonda Azercell tərəfindən uşaq evinin kiçik sakinlərinə hədiyyələr paylanılıb.

Lider mobil operator “Kitab Klubu” layihəsi əsnasında həm böyüklər, həm də balacalar üçün silsilə tədbirlərin keçirilməsini planlaşdırır. Xatırladaq ki, layihəyə 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 3 saylı uşaq evi sosial xidmət müəssisəsinin uşaqları üçün həyata keçirilən tədbirdə start verilib.

Mədəni irsin qorunub saxlanmasına dəstək olan təşəbbüs və layihələrə xüsusi önəm verən Azercell bu istiqamətdə fəaliyyətini davam etdirəcək.

## *İdman*

## Paris-2024: Azərbaycan medal sıralamasında 21-ci pillədə qərarlaşıb

Azərbaycan Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında medal sıralamasında 21-ci pillədə qərarlaşıb.



“Report”un məlumatına görə, hələlik komandanın aktivində iki qızıl mükafat var.

Cüdoçular Hidayət Heydərov (73 kq) və Zelim Kotsoyev (100 kq) olimpiya çempionu olublar.

Boksçu Alfonso Dominqes (92 kq) finala yüksəlməklə ən azı gümüş medalı təmin edib. O, mübarizəyə davam etdiyi üçün mükafat cədvəldə göstərilməyib.

Qardaş ölkə Türkiyə (1 gümüş, 1 bürünc) 49-cu, Gürcüstan (1 qızıl, 2 gümüş, 1 bürünc) 27-ci, Ukrayna (2 qızıl, 1 gümüş, 3 bürünc) 17-ci sıradadır.

İlk “üçlük”də ABŞ (19 qızıl, 26 gümüş, 26 bürünc), Çin (19 qızıl, 15 gümüş, 11 bürünc) və Fransa (12 qızıl, 14 gümüş və 18 bürünc) yer alıblar.

Hələlik 70 ölkə medal əldə edə bilib.

Qeyd edək ki, Paris-2024 avqustun 11-də başa çatacaq.

## Azərbaycanın stolüstü tennisçiləri beynəlxalq toplanışa qatılıblar

Azərbaycanın stolüstü tennisçiləri Xədicə Babazadə və Vaqif Babayev Avropa Stolüstü Tennis İttifaqının beynəlxalq təlim-məşq toplanışında iştirak edirlər.



Azərbaycan Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Latviyanın paytaxtı Riqada təşkil olunan hazırlığa qitənin istedadlı yeniyetmə idmançıları dəvət alıblar.

“Prospektus - Eurotalents Selection Camp” seçim xarakteri daşıyan toplanış avqustun 10-dək davam edəcək. Burada fərqlənən stolüstü tennisçilər növbəti beynəlxalq təlim-məşqlərə vəsiqə qazanacaqlar.

## Çempionlar Liqası: “Qarabağ”ın pley-off mərhələsindəki potensial rəqibi bəlli olub

UEFA Çempionlar Liqasında pley-off mərhələsinin püşkü atılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə “Qarabağ”ın da potensial rəqibi müəyyənləşib.

Son Azərbaycan çempionu III raundda Bolqarıstanın “Ludaqorets” klubunu mübarizədən kənarlaşdırsa, “Dinamo” (Zaqreb, Xorvatiya) ilə qarşılaşacaq.

Qeyd edək ki, Çempionlar Liqasında pley-off mərhələsinin ilk oyunları avqustun 20-21-də, cavab qarşılaşmaları isə 27-28 avqustda keçiriləcək.









## “Nar” yüksək keyfiyyətli “Cartoon Network” oyunlarına giriş imkanı təqdim edir

“Nar” “Cartoon Network” oyunlarında ən məşhur və sevimli animasiya qəhrəmanlarının yer aldığı oyunlara öz müştəriləri üçün unikal giriş imkanı yaradır. Yüksək keyfiyyətli müxtəlif oyun kateqoriyaları uşaqlarınızın asudə vaxtlarını daha əyləncəli keçirməsini təmin edəcək. Uşaqların sevimlisinə çevriləcək bu xidmət “Nar” və qabaqcıl ödəniş və məzmun monetizasiya həlləri təchizatçısı olan “Digital Virgo” şirkəti arasındakı əməkdaşlıqla təqdim edilir.

“Nar” müştəriləri “Cartoon Network” kataloquna daxil olan çoxsaylı eksklüziv və məşhur oyunlara giriş imkanı əldə edəcəklər. Bu xidmətə qoşulmaq üçün mobil telefonunuzdan *668#YES yığmaq kifayətdir. Daha sonra sizə uyğun abunə şifrəsini (gündəlik abunəlik üçün “1”, həftəlik abunəlik üçün “7”, aylıq abunəlik üçün “30”) SMS vasitəsilə göndərə, həmçinin gündəlik abunəlik üçün *448#YES, həftəlik abunəlik üçün *668#YES, aylıq abunəlik üçün isə *886#YES yığa bilərsiniz. Təsdiq SMS-dən sonra telefonunuza gələn PİN şifrə vasitəsilə “Cartoon Network” veb-səhifəsinə və ya tətbiqinə daxil ola bilərsiniz.

Sərfəli qiymət strategiyası ilə tanınan “Nar” müştərilərinə xüsusi təklif təqdim edir. Belə ki, “Nar” müştəriləri həftəlik və aylıq abunəlik üçün 3 günlük pulsuz sınaq imkanından yararlana bilər. Bu, heç bir ilkin ödəniş olmadan övladlarınızın yüksək keyfiyyətli oyunlardan zövq almasına imkan verir. Pulsuz istifadə müddəti bitdikdən sonra aylıq abunəlik 5.99 AZN, həftəlik abunəlik 1.99 AZN təşkil edəcək. Gündəlik abunəlik haqqı isə 0.40 AZN təşkil edir.

“Cartoon Network games” barədə əlavə məlumatı nar.az saytından əldə edə bilərsiniz.

“Nar” hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir.

“Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4617**
**Sifariş: 1737**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova